
İLLİK HESABAT
09
unibank

# İLLİK HESABAT **2009**

# ÖN SÖZ

Bir nəfərin əməyi – bir qığılcımdir. Komandanın əməyi isə – alovdur. Məhz buna görə biz Bankın 2009-cu ilin yekunlarına görə bu İllik hesabatı komandamıza həsr etdik. Sizi işimizin mahiyyəti və mühiti ilə yaxından tanış etmək üçün, ənənəvi stereotiplərdən kənara çıxaraq, futbol mövzusuna müraciət etməyə qərara aldıq. Cari İllik hesabatda futbol ilə bağlı təsvir və rəsmlərin nümayiş etdirməyimizin də əsas məqsədi Sizdə bank biznesinin əsl komanda oyunu olmasına əmin etməkdir. Futboldakı kimi bank işində də hər bir peşəkar bütövlükdə komandanın qələbəsinə öz nailiyyət payını verir.

"Unibank" üçün komanda ruhu və komanda ilə iş heç də rəvayət deyil, əksinə, Azərbaycan bank xidmətləri bazarında uğur və müvəffəqiyyətlərin əldə olunmasında ən başlıca amillərdir. Biz əminik ki, yalnız peşəkar və qüclü mütəxəssislərdən ibarət olan komanda, Bankın inkişafdan qalmayacağına zamin ola bilər. Ona görə də hər bir "Unibank"çının səriştəsi, iddiaları və şəxsi keyfiyyətləri Bankın bazar nəticələrində öz müsbət əksini tapır. Bu gün bizim təkrarolunmaz və müstəsna üstünlüyümüz – "Unibank"da hər bir cəhətdən güclü komandanın olmasıdır.





# MÜNDƏRİCAT


01 Müşahidə Şurası sədrinin müraciəti
02 İdarə Heyəti sədrinin müraciəti
03 Azərbaycan iqtisadiyyatı 2009 ildə
04 Azərbaycan bankları 2009 ildə
05 Səhmdarlar və kapital
06 Məhsullar və xidmətlər
07 Korporativ biznesin dəstəklənməsi
08 İlin sazişi
09 Korporativ sosial məsuliyyət
10 “Unibank” Premyer Liqası
11 Beynəlxalq reytinqlər
12 “Bahooo” kommunikasiya konsepti
13 Risk-menecment
14 HR-menecment
15 İnformasiya təminatı və təhlükəsizliyi
16 İşgüzar nüfuz
17 Auditor hesabatı

# MÜŞAHİDƏ ŞURASI SƏDRİNİN MÜRACİƏTİ

**Hörmətli xanımlar və cənablar,**

2009-cu il bütün dünyada bank sistemi üçün mürəkkəb bir il oldu. Bir sıra ekspertlərin mülahizələrinə və proqnozlarına baxmayaraq, ümumdünya maliyyə böhranı Azərbaycanda da bank xidmətləri bazarının bir çox iştirakçısının fəaliyyətini zəiflətdi. Qlobal iqtisadi proseslər «Unibank»ın fəaliyyətindən də yan keçmədi. Ölkənin ən iri özəl banklarından biri kimi, Bank 2009-cu ili öz strategiyasının həyata keçirilməsində mühüm mərhələ kimi başa vurdu. Həm də bu strategiyanın təkcə biznesin ayrı-ayrı istiqamətlərinin inkişafına deyil, eləcə də onların qarşılıqlı sıx əlaqəsinə yönəlmiş şəkildə yürüdülməsinə nail oldu. İnkişafını müvəffəqiyyətlə davam etdirərək «Unibank» sabit artım tempini qoruyub saxladı və dayanıqlılığını təmin etmiş bir Bank kimi özünü təsdiqlədi, müştərilərinin, tərəf müqabillərinin, sərmayəçilərinin etimadını doğrultdu. Biz stresə qarşı dözümlülüyümüzü sübuta yetirdik və indi özümüzü istənilən maliyyə vəziyyətlərinə hazır hiss edirik. Bu iddia istər hazırkı vəziyyətdə, istərsə də gələcək üçün tutarlıdır. Çünki Bank bütün müştəri qruplarının onun xidmətlərinə olan ehtiyaclarını ödəyir. On minlərlə müştərimiz bizim biznesin geniş və yaxşı diversifikasiya olunmuş bazasını təşkil edir.

«Unibank» öz müştərilərinə əvvəlki kimi, hətta hər zamankından daha da artıq sadiqdir. Biz müştərilərimizin qlobal böhranın təsirini öz üzərlərində hiss etdiklərini anlayır və bu təsirin maksimum rahatlıqla aradan qaldırılmasına yardım etməyə çalışırıq. Bunun üçün Bank həm maliyyə vəsaitinə, həm də struktur imkanlarına malikdir.

Xüsusi qeyd etmək istərdim ki, ölkənin Mərkəzi Bankı tərəfindən konsolidasiya proseslərinin rəğbətləndirildiyi bir vaxtda, belə birləşmə nəticəsində yaranmış «Unibank» bir neçə addım irəlidədir. «Unibank«ın dayanıqlı vəziyyəti dəqiq düşünülmüş və düzgün şəkildə həyata keçirilən biznes modeli sayəsində qorunur. Bu model bank bazarının bütün xüsusiyyətlərini və meyllərini nəzərə alır və iqtisadiyyatda istənilən dəyişikliklərə, onları öz xeyrinə çevirərək, operativ şəkildə və vaxtında reaksiya verir. Qlobal iqtisadi vəziyyətdə dəyişikliklər bizdən aktivlərimizin keyfiyyətinə daha dərindən diqqət yetirilməsini tələb etdi. Məqsədimizə nail olmaq üçün biz risklərin idarə edilməsi sahəsində yeni iqtisadi vəziyyətə uyğunlaşdırılmış siyasət işləyib hazırladıq. Bu siyasət bizim fəaliyyət planımızın prioritetini təşkil edir. Biz, həmçinin pərakəndə seqmentin səmərəliliyinin yüksəldilməsi və onun daha da genişləndirilməsi üçün tədbirlər həyata keçirməyi planlaşdırırıq. Başlıca məqsədimiz fərdi əmanətlərin həcminin artırılmasıdır. Mən məmnuniyyətlə qeyd edirəm ki, biz bu istiqamətdə əhəmiyyətli tərəqqiyə nail ola bilmişik və müştərilərimizin bizə göstərdiyi etimad sayəsində bu meyl 2010-cu ildə də davam edəcək.

**Ən xoş arzularla,**
**Eldar Qəribov**

# MÜŞAHİDƏ ŞURASI



**Eldar Qəribov**
Müşahidə Şurasının sədri



**Emin Quliyev**
Müşahidə Şurasının sədr müavini



**Elxan Qəribli**
Müşahidə Şurasının üzvü



**İqor Yakovenko**
Müşahidə Şurasının üzvü



**Samir Balayev**
Müşahidə Şurası sədrinin müşaviri



**Andreas Zeisler**
Müşahidə Şurasının üzvü



**Julian Hilli**
Müşahidə Şurasının üzvü


unibank



# Məqsədini müəyyənləşdir

İşə başlamazdan əvvəl məqsədini müəyyənləşdir. Sadəcə iştirakçı olmaq istəyirsən, yoxsa qalib? Sadəcə iştirakçı mükəmməl oyun nümayiş etdirə bilməz. O, öz güclü və zəyif tərəflərini davamlı təhlil edərək, qələbə yolundakı çətinlikləri hər an dəf etməyə hazır olmalıdır.

# İDARƏ HEYƏTİ SƏDRİNİN MÜRACİƏTİ

**Hörmətli xanımlar və cənablar,**

İcazə verin «Unibank» Kommersiya Bankının 2009-cu ilin nəticələri üzrə hesabatını sizə təqdim edim. Bildiyiniz kimi, bu il Azərbaycanın bütün bank sistemi üçün mürəkkəb olub. Maliyyə bazarlarında vəziyyətin kəskin şəkildə pisləşməsi dövrü kimi, bu il bizim biznes-model üçün dözümlülük sınağı oldu. Tam əminliklə deyə bilərəm ki, biz bu sınağa üzü ağ çıxdıq! Bank maliyyə sahəsində özünün sabit vəziyyətini, bütün başlıca bazar paylarını qoruyub saxladı, iştirak coğrafiyasını genişləndirdi və əsas göstəricilər üzrə kifayət qədər nəzərəçarpan inkişaf dinamikası göstərdi. Buna görə də, ilə yekun vurarkən hər şeydən əvvəl «Unibank» ASC-nin bu hesabatda təqdim edilmiş müsbət nəticələrini qeyd etmək lazımdır. Belə ki, bank sektorunda gəlirlərin əhəmiyyətli dərəcədə azalmasına baxmayaraq, bu sahədə «Unibank»ın xalis gəliri 4,9 milyon manatdan artıq olmuşdur. 2010-cu il yanvar ayının 1-i üçün aktivlər 350 milyon manat təşkil etmiş, Nizamnamə kapitalı isə iki dəfə artaraq, 30 milyon manata çatmışdır. Bu göstəricilər həm Bankın dayanıqlılığına və etibarlılığına sübut, həm də əmanətçilərin son ildə sayı 80 minə qədər artmış əmanətlərinin qorunub saxlanılmasına tutarlı zəmanətdir.

2009-cu ildə, xüsusilə, ilin ikinci yarısında ən uğurlu saydığımız cəhət sürətlə artan başlıca göstəricilər yox, dayanıqlı maliyyə vəziyyəti və müştəri yönümlü - müştərilərə keyfiyyətli və səmərəli xidmət göstərmək imkanı oldu. Məhz maliyyə baxımından dayanıqlılıq «Unibank»ın sonrakı müvəffəqiyyətli inkişafının rəhni oldu. Bu vəziyyət aktivlərin və passivlərin formalaşması zamanı balanslaşdırılmış yanaşmanın, risklərin idarə edilməsi sahəsində konservativ siyasətin və optimallaşdırılmış inzibati-təsərrüfat xərclərinin sayəsində mümkün oldu.

Qüsursuz kredit tarixçəsi, zəruri reytinq qiymətlərinin mövcudluğu, hətta məhdud likvidlik şəraitində belə, Banka beynəlxalq bazarlardan ehtiyatlar cəlb etmək imkanı verdi. Təsadüfi deyil ki, 2009-cu ildə «Unibank» beynəlxalq maliyyə institutlarından ən iri maliyyə qovluğu almış ilk özəl Azərbaycan bankı oldu. Bu irimiqyaslı qovluq sövdəsi, eləcə də Bankın hökumət tərəfindən yenidən maliyyələşdirilən sahibkarlığın dəstəklənməsi proqramlarında fəal iştirakı sayəsində biz kiçik və orta biznesin maliyyələşdirilməsinə əlavə vəsaitlər yönəltməyə nail olduq. Şübhəsiz, 2009-cu ildə «Unibank»ın başlıca vəzifəsi kiçik və orta biznesin, habelə ümumdünya maliyyə-iqtisadi böhranının nəticələrini öz üzərində hiss edən istehlak sektorunun stimullaşdırılması idi. Məhz kiçik və orta biznes layihələri sayəsində ölkədə iş yerləri yaradılır, yeni istehsalat sahələri açılır, infrastruktur obyektləri tikilir, vergi daxilolmaları artır, bilik və texnologiyalar ötürülür.

Respublikanın 8 aparıcı regionunda təmsil edilən ölkəmiqyaslı bank kimi, biz Azərbaycanın gələcəyinin qırılmaz şəkildə sosial rifah və sabitliklə, mədəniyyətin, təhsilin, elmin, idmanın inkişafı ilə bağlı olduğunu dərk edirik. Məhz buna görə korporativ ictimai məsuliyyət proqramlarının inkişafı çərçivəsində 2009-cu ildə «Unibank» futbol üzrə milli çempionatın baş sponsoru oldu. Azərbaycan futbolu və korporativ sektor tarixində ilk dəfə olaraq, biz öz üzərimizə, istər Peşəkar Futbol Liqasının büdcəsinin maliyyələşdirilməsi, istərsə də milli birinciliyin populyarlaşdırılması, oyunçuların stimullaşdırılması, ictimai hadisə kimi futbolun təbliği sahəsində öhdəliklər götürdük. Özünü cəmiyyətin bir hissəsi hesab edərək, «Unibank» Kommersiya Bankı ASC Azərbaycan futbolunun gələcəyinə inanır və bu oyuna aludə olmuş milyonlarla adamın rifahı naminə çalışmaqda davam edir. Biz birlikdə qalib gələcəyik və hər bir müştərimizin maliyyə sahəsində qələbələri üçün əlimizdən gələni etməyə hazırıq.

**Səmimiyyətlə,**
**Sizin Faiq Hüseynov**



# İDARƏ HEYƏTİ



**Faiq Hüseynov**
İdarə Heyətinin sədri



**Faiq Zeynalov**
İdarə Heyətinin üzvü,
Riteyl xidmətləri üzrə direktor



**Emin Rəsulzadə**
İdarə Heyətinin üzvü,
Maliyyə üzrə direktor



**Vaqif Qəribli**
İdarə heyətinin üzvü,
Korporativ xidmətlər üzrə direktor



**Vadim Qədirov**
İdarə Heyətinin üzvü,
Biznesin inzibatiləşdirilməsi və dəstəklənməsi üzrə direktor



**Fazil Məmmədov**
İdarə Heyətinin üzvü,
Risk-menecment üzrə direktor

# AZƏRBAYCAN İQTİSADİYYATI 2009-CU İLDƏ

Azərbaycanın iqtisadiyyatı dünya maliyyə böhranının nəticələrinə nisbətən yaxşı davam gətirsə də, onlardan tam təcrid oluna bilmədi. 2009-cu ildə Ümumi Daxili Məhsulun (ÜDM) ümumi artım tempi əhəmiyyətli olmuş və 9,3% təşkil etmişdir. Lakin qeyri-neft sahələrində ÜDM-un artım tempi 2008-ci ildəki 16%-dən 2009-cu ildə 3%-ə qədər enmişdir. Neftə və digər birja mallarına dünya qiymətlərinin əhəmiyyətli dərəcədə enməsi büdcə və ixracat gəlirlərinin 30%-dən çox azalmasına gətirib çıxardı. Bundan əlavə, bir sıra dövlət müəssisələri və banklar qısamüddətli xarici öhdəliklərin prolonqasiyası zamanı çətinliklərlə üzləşdilər. Bu isə bank sistemində müəyyən likvidlik çatışmazlığını meydana gətirdi və kreditləşdirilmənin artım tempinin kəskin surətdə azalmasına səbəb oldu. Dünya qiymətlərinin endiyi bir şəraitdə, inflyasiyanın orta illik tempi əhəmiyyətli dərəcədə zəiflədi: 2008-ci ildəki 20%-dən artıqdan 2009-cu ildə 1,5%-ə qədər.

Hökumətin və Azərbaycan Mərkəzi Bankının (AMB) dünya böhranına cavab olaraq həyata keçirdiyi uzaqgörən tədbirlər makroiqtisadi və maliyyə sabitliyinin və ÜDM-un tutarlı artım tempinin qorunub saxlanmasına kömək etdi. Hökumət, böhrana vaxtında reaksiya verərək, təsirli büdcə siyasəti tədbirləri qəbul etdi. Əvvəla o, Neft Fonduna nəzərdə tutulmuş ehtiyatlar həcmini əvvəlki kimi dövlət büdcəsinə köçürmək imkanı verməklə, neftin qiymətinin əhəmiyyətli dərəcədə düşməsinin büdcəyə təsirini məhdudlaşdırdı. İkincisi, dövlət neft və alüminium şirkətlərinə öz xarici öhdəliklərini ödəməkdə yardım etmək üçün, iri kapital daxil etmələri həyata keçirdi və borclar üzrə dövlət təminatları təqdim etdi. Üçüncüsü, hökumət, prioritet təşkil etməyən xərclərin ixtisar olunması və ancaq cari kapital sərmayəsi layihələrinin maliyyələşdirilməsi yolu ilə, gəlirlərin azalmasına uyğunlaşdı. Nəticədə nəinki büdcə çatışmazlığının, nefti nəzərə almadan, bütövlükdə sabit səviyyədə saxlanması, eyni zamanda sosial xərclərin artırılması da mümkün oldu. 2010-cu il üçün, nefti nəzərə almadan, büdcə çatışmazlığının azaldılması nəzərdə tutulur. Bu zaman gəlir və mənfəət vergilərinin azalacağı qəbul edilir.

Azərbaycan Mərkəzi Bankı (AMB) maliyyə sabitliyini, sabit mübadilə kursunun qorunub saxlanılması və bank sisteminə likvidliyin əlavə edilməsi yolu ilə, müvəffəqiyyətlə dəstəkləyirdi. Manatın məzənnəsinin azalacağına münasibətdə artan gözləntilərə baxmayaraq, 2009-cu ilin əvvəlində AMB, onun mübadilə kursunun ABŞ dollarına bağlılığının qorunub saxlanması üçün, müdaxilələri müvəffəqiyyətlə həyata keçirirdi ki, bu da inflyasiyanı azaltmağa və əhalinin və bankların balanslarına mənfi təsirdən yaxa qurtarmağa imkan verirdi, həm də iqtisadiyyatın sonrakı «dollarlaşdırılmasının» qarşısını alırdı. Likvidliyin pisləşməsinin dəf edilməsi və kreditləşdirilmə şərtlərinin sərtləşdirilməsi üçün, 2008-ci ilin sentyabr ayından 2009-cu ilin dekabr ayına kimi olan dövrdə AMB depozitlər üzrə məcburi ehtiyat normativlərini 12%-dən 0,5%-dək endirdi və yenidən maliyyələşdirilmənin dərəcəsini 15%-dən 2%-ə qədər ixtisar etdi. Bundan əlavə, AMB, müvəqqəti olaraq likvidlik problemləri ilə rastlaşmış banklara, likvidliyin dəstəklənməsi şəklində, 1,1 mlrd. ABŞ dolları (ÜMD-un 2,6%-i) təqdim etdi. Nəhayət, depozitlərin sığorta olunmasının maksimal məbləği beş dəfə artırıldı ki, bu da bank sisteminə etimadın bərpa olunmasına yardım etdi.

Gözlənilir ki, qeyri-neft sektorunda ÜDM-in artımı 2010-cu ildə 4,2%-ə qədər bərpa olunacaqdır, lakin şəraitin pisləşməsi riskləri hələ də mövcuddurlar. «Neft ÜDM-u» adlanan hissə, proqnozlara görə, ancaq 1,3% artacaqdır, bu isə o deməkdir ki, baş iqtisadi göstəricinin ümumi artım tempi ancaq 2,7% təşkil edəcəkdir. Qeyri-neft sektorunun canlanması və enerji daşıyıcılarına dünya qiymətlərinin artması ilə yanaşı, 2010-cu ildə inflyasiyanın sürəti artacaq və, gözlənildiyi kimi, 4% təşkil edəcəkdir.

Neft hasilatının gələcəkdə başlıca artım mənbəyi olmaqdan uzaqlaşacağını nəzərə alaraq, Azərbaycan iqtisadiyyatının ortamüddətli perspektivi, əhəmiyyətli dərəcədə, payına ümumi ixracatın ancaq 5%-i düşən qeyri-neft ixracatının iqtisadiyyatın başlıca artım amilinə çevrilə biləcəyindən asılıdır. Gələcək üçün ən mühüm məsələr əldə edilmiş sabitliyin qorunub saxlanılmasından və iqtisadi artım mənbələrinin diversifikasiyasından ibarətdir.

Bu, pul-kredit siyasətinin təsirinin ötürülməsi mexanizminin təkmilləşdirilməsini və qeyri-neft sektorları üçün kreditlərə buraxılışın yaxşılaşdırılmasını tələb edir. Bununla əlaqədar, Azərbaycan hökumətinin,

vergi sisteminin, gömrükxananın və maliyyə sektorunun islahatlarının sonrakı irəliləyişi sayəsində, rəqabət qabiliyyətinin yüksəldilməsində və işgüzar mühitin yaxşılaşdırılmasında cəmlənmiş qeyri-neft sektorunun inkişaf etdirilməsi strategiyasını inkişaf etdirmək barədə qəti niyyəti alqışlanır.

| **Azərbaycan iqtisadiyyatınn əsas göstəriciləri** | **2009-cu il faktiki, mln. AZN** | **2009-cu il 2008-ci ilə nisbətən, %-lə** | **2008-ci il 2007-ci ilə nisbətən, %-lə** |
|---|---|---|---|
| Ümumi daxili məhsul | 34578.7 | 109.3 | 110.8 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi | 22184.4 | 108.6 | 106 |
| Əsas kapitala yönəldilən investisiyalar | 7358.7 | 81.3 | 134.3 |
| Kənd, meşə və balıqçılıq təsərrüfatlarının ümumi məhsulu | 3435.6 | 103.5 | 106.1 |
| Nəqliyyat sektorunda yük daşınması, mlyn. ton | 189.8 | 103.7 | 109.3 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 1010.5 | 113.1 | 129.8 |
| Pərakəndə əmtəə dövriyyəsi | 11828.5 | 108.9 | 116.1 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 4088.2 | 112.5 | 129.7 |
| Xarici ticarət dövriyyəsi, mlyn. ABŞ $ | 20 826.9 | 37,9 | 4,7 dəfə artıb |
| ixracın ümumi həcmi | 14 699.8 | 30,8 | 7,9 dəfə artıb |
| idxalın ümumi həcmi | 10 325.9 | 85.5 | 125.5 |
| Dövlət büdcəsinin gəlirləri | 10 325,9 | 95.9 | 179.2 |
| Dövlət büdcəsinin xərcləri | 10 503,9 | 97.5 | 177.0 |
| Dövlət büdcəsinin kəsiri | 177,9 | 15,3 dəfə artıb | 6,9 dəfə azalıb |
| Əhalinin gəlirləri | 22396.1 | 108 | 142.4 |
| Adambaşına düşən gəlirlər, manat | 2537.2 | 106.7 | 140.5 |
| Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı, manat | 298 | 108.6 | 127.2 |
| İstehlak qiymətlərinin indeksi | - | 101.5 | 101.5 |






# Rəqibi tanı

Səninlə bir meydana atılanları – rəqibləri yaxşı tanı. Rəqibin gücünü düzgün qiymətləndirmək qələbənin ilk şərtlərindəndir. Rəqibin güclü tərəflərini görən özünün zəifliklərini islah edə bilir.

# AZƏRBAYCAN BANKLARI 2009-CU İLDƏ

**2009-cu ilin özəl əmanətlərin artımı, mln. AZN ilə**




2009-cu ildə ölkənin bank sahəsi, bütün Azərbaycan iqtisadiyyatı kimi, qlobal böhranın nəticələrini müvəffəqiyyətlə dəf etmişdir. Banklar artım nümayiş etdirmiş, ölkənin bank institutlarının kredit portfelləri və depozit bazaları isə stressə qarşı dözümlülük sınağından müvəffəqiyyətlə keçmişlər. Qlobal bazarlarda baş verən hadisələrin, konkret olaraq, neftin qiymətinin enməsinin nəticələri dövlət üçün sosial ağırlıq yaratmadı, lakin eyni zamanda

Azərbaycanın bank sistemi pul vəsaitlərinin bahalaşması prosesinə cəlb edilmiş oldu. Beynəlxalq kapital bazarları 2008-ci ilin yayından sahənin liderləri üçün bağlı oldular. Bunun ardınca, iri banklarda korporativ sektorun depozitlərinin ixtisarı və onların beynəlxalq maliyyə institutlarına borclarının yenidən strukturlaşdırılması zərurətindən doğan likvidlik böhranı gəldi. 2009-cu ilin əvvəlində likvidliyin çatışmazlığı ümumən bütün bankların aktivlərinin məcmu həcminin 3%-nə yaxın məbləği təşkil edirdi. Lakin bu məbləğin necə bölünməsi narahatlıq yaradırdı. Axı vəsait çatışmazlığının əksər hissəsi iri özəl bankların payına düşürdü.

Məhz buna görə, praktiki olaraq birinci onluğa daxil olan bütün banklar ən loyal müştəriləri belə maliyyələşdirməkdən imtina edərək, kredit proqramlarını dayandırmağa məcbur oldular. Beləliklə, korporativ depozitlərin axını başladı. Çünki şirkətlər öz vəsaitlərindən sərmayə qoyuluşu üçün və sadəcə öz likvidlik səviyyəsinin qorunub saxlanması üçün istifadə etməyə məcbur oldular. 2009-cu ilin ilk altı ayının yekunlarına görə, Azərbaycanın bankları hüquqi şəxslərin depozitlərinin 38,34%-ni itirdilər. Birinci yarım ildə hüquqi şəxslərin məcmu depozit portfeli 2,856 mlrd. AZN-dən 1,761 mlrd. AZN-ə qədər azaldı. Beləliklə, 2009-cu ilin birinci yarımilini ölkə banklarının neqativ trendlərinin kulminasiyası hesab etmək olar. Bu zaman sahənin aktivləri ilk dəfə 10,5% azaldılar.

Ən mürəkkəb dövr hesabat ilinin birinci rübü hesab edilə bilər. Yanvar-mart aylarında sahənin məcmu aktivlərinin göstəricisi, xarici mənimsəmələrin ödənilməsi, korporativ və istehlak sektorlarının kreditləşdirilməsinin kəskin surətdə ləngidilməsi hesabına, demək olar ki, 1,5 mlrd. AZN azaldı.

Lakin bank sahəsinin gəlirləri birinci yarımildə nəinki azalmadı, əksinə, 2008-ci ilin ilk altı ayı ilə müqayisədə 24,05% artdı - 113,35 mln. AZN-dən 140,6 mln. AZN-ə qədər. Bu zaman iri özəl bankların orta gəlir göstəirisi 10,9% artaraq, 2009-cu ilin

iyul ayının 1-i üçün 4,91 mln. AZN təşkil etdi. 15 liderdən 9-u bu orta səviyyədən yuxarı gəlir göstəricisinə nail olmuşlar ki, bu da bank sisteminin özəyinin maliyyə baxımından sabitliyinə dəlalət edir. Qlobal böhranın nəticələri ölkənin iri banklarının etibarlı olduğunu bir daha sübut etdi. Təsadüfi deyildir ki, AMB-nın hesablamalarına əsasən, 2009-cu ilin yanvar-iyun aylarının nəticələrinə görə, ölkə banklarının aktivlərinin rentabelliyi (ROA) və şəxsi kapitalının rentabelliyi (ROE) göstəricilərinin artımı müşahidə olunub. İlin birinci yarısı üçün fəaliyyətin yekunlarına görə, bank sisteminin ROA və ROE göstəriciləri, 2008-ci il üçün olan 2,2%-ə və 17%-ə qarşı, müvafiq olaraq, 3,1% və 21,2% təşkil etmişlər. Məcmu kapitalın adekvatlıq göstəricisi 19,5%-ə bərabər olmuşdur.

Qeyd etmək lazımdır ki, 2009-cu ildə Azərbaycanda fəaliyyət göstərən bir bank belə öz öhdəliklərindən imtina etməmişdir. Ölkənin iri bankları tərəfindən ümumi $1,2 milyard məbləğində xarici öhdəliklər ödənilmişdir. Bu dövr ərzində Azərbaycan bankları tərəfindən beynəlxalq maliyyə institutlarından ancaq $400 mln. cəlb edilmişdir. Özü də bu məbləğdən $83 mln. ölkənin özəl bankinqinin bütün tarixi ərzində ən iri maliyyə paketi cəlb etməyə nail olmuş "Unibank"ın payına düşmüşdür. Qərb kapital bazarlarında vəsaitlərin cəlb edilməsi imkanlarının əhəmiyyətli dərəcədə azalması bank sahəsinin vəziyyətinə təsir göstərən iki əhəmiyyətli amili müəyyən etmişdir.

Bunlardan birincisi ondan ibarətdir ki, fondlaşdırılma mənbəyi kimi əhalinin əmanətləri ən böyük əhəmiyyət kəsb etmişdir. İkinci amil isə Mərkəzi Bankın likvidliyin dəstəklənməsi üzrə alətləri ilə bağlıdır. Bir sıra hallarda əcnəbi tərəf-müqabillərin ölkənin özəl banklarından borcların vaxtından əvvəl ödənilməsini tələb etdiklərinin qəbul edərək, Mərkəzi Bank "maliyyə immunizasiyası" adlanan tədbirləri həyata keçirmişdir. Böhran əleyhinə tədbirlər çərçivəsində AMB $2 mlrd.-lıq birbaşa və dolayısı ilə likvidliyi təmin etmişdir.

Bu zaman Mərkəzi Bank, aparıcı bankların yenidən maliyyələşdirilməsi üçün, bank sisteminə təqdim edilmiş mərkəzləşdirilmiş kreditlərin həcmini, 2009-cu ilin yanvar ayının 1-ə olan 229 mln. AZN-ə qarşı, 1,315 mlrd. AZN-ə qədər artırmışdır. AMB haqqında qanuna 2009-cu ilin iyul ayının 9-da edilmiş dəyişikliklərə və əlavələrə əsasən, son instansiya kreditoru qismində Mərkəzi Bankın səlahiyyətləri əhəmiyyətli dərəcədə genişləndirilmişdir.

Qanunun yeniləşdirilməsi qlobal iqtisadi-maliyyə böhranının arzuolunmaz nəticələrilə daha fəal mübarizə aparmaq imkanı verdi. AMB həmçinin subordinasiya olunmuş kreditlər vermək (bankın kapitallaşdırılmasının yüksəldilməsi üçün), habelə, dövlət zəmanəti ilə real sektorların maliyyələşdirilməsi üçün banklara kreditlər vermək hüququ əldə etdi. AMB tərəfindən banklara kreditlərin verilməsinin mövcud qaydaları 2009-cu ilin iyul ayının 28-də təsdiq edilmişdir. Bundan əlavə, 2008-ci ilin oktyabr ayından AMB, mərhələ-mərhələ, uçot dərəcəsini illik 15%-dən illik 2%-ə qədər, faiz dəhlizinin yuxarı həddini 13%-dən 7%-ə qədər, məcburi ehtiyatlanma normalarını isə 12%-dən 0,5%-ə qədər endirmişdir. Paralel olaraq AMB məcmu xarici borcları bankların öhdəliklərinin ümumi həcminin 20%-i səviyyəsində məhdudlaşdıraraq və banklara qarşı prudensial tələbləri sərtləşdirərək, bank risklərinin çevik tənzimlənməsi siyasətini davam etdirmişdir.

Əhalinin bank sisteminə inamının möhkəmləndirilməsi işində əhəmiyyətli amil milli valyutanın məzənnəsinin dəstəklənməsi, habelə fiziki şəxslərin depozitlərinin tam sığortalanmış ödənilməli məbləğinin 6 min AZN-dən 30 min AZN-ə qədər artırılması oldu. Devalvasiyadan imtina və əhalidən vəsaitin cəlb edilməsinin faiz dərəcələrinin artırılması fonunda Əmanətlərin sığortalanması Fondunun qərarları bir sıra bankların

# AZƏRBAYCAN BANKLARI 2009-CU İLDƏ

fondlaşdırılması problemini həll etdi. Beləliklə, bank bazarının tənzimçisi əmanətçilər arasında yarana biləcək vahimənin qarşısının alınması ilə bərabər, bank sahəsinin nüfuzunu bərpa etdi.

Mərkəzi Bank tərəfindən həyata keçirilən tədbirlərin qanunauyğun yekunlarından biri kimi ölkənin bank sisteminin resurs bazasının artımını qəbul etmək olar. Banklarda əmanətlərin artırılması üçün əlavə stimullardan biri inflyasiya göstəricilərinin minimuma (1,5%) endirilməsi, habelə daşınmaz əmlak bazarında qiymətlərin enməsi oldu ki, bu da əhalinin gəlirlilik üzrə alternativ alətinin aşağı gəlirliliyini şərtləndirmiş oldu.

Yanvar-mart və aprel-dekabr aylarının müxtəlif istiqamətlənmiş dinamikasını nəzərə almaqla, 2009-cu ildə fiziki şəxslərin depozit portfelinin artımı 22,55% səviyyəsində qiymətləndirilir. Ötən ildə banklar məcmu şəkildə əlavə olaraq 348 mln. AZN cəlb etmişlər ki, bunun da 87%-i bank sisteminin özəyini təşkil edən 10 bankın payına düşür.

Eyni zamanda, 2009-cu ildə ikinci rübün ilk müsbət trendlərinin hesabına iyul ayının 1-i üçün banklar kreditlərin məcmu kredit portfelini 6463,8 mln. AZN-ə çatdırmışlar. İlin yekunlarına görə isə onların kredit portfeli 17,4% artmışdır. Faktiki olaraq. bu artım da ölkənin Mərkəzi Bankı tərəfindən real sektora göstərilən birbaşa dəstəklə bilavasitə bağlıdır.

AMB iki sənaye nəhənginə - Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə (ARDNŞ) və “Azəralüminium” ASC-nə cəmi 952 mln. AZN məbləğində kredit təqdim etmişdir. Ötən ilin ikinci rübündə korporativ müştərilərin banklardan mənimsəmələri, AMB-dən birbaşa

**2009-cu ilin iyul-dekabr aylarında bank aktivlərinin artımı, mln. AZN ilə**




**2009-cu ilin iyul-dekabr aylarında bank kreditlərinin artımı, mln. AZN ilə**



kreditləri nəzərə almadan, 905,1 mln. AZN artmışdır. Bu, 2009-cu ilin ilk aylarının enmələrini və staqnasiyasını əvəz etmişdir.

Banklar praktiki olaraq məcmu pərakəndə kreditlər portfelini toxunulmamış saxlamağa müvəffəq oldular. Onun həcmi il ərzində ancaq 6 mln. AZN azaldı. Nəticədə, bank kreditləşdirməsinin ümumi həcmində ev təsərrüfatı kreditlərinin xüsusi çəkisi 32,6%-dən 27,7%-ə qədər azalmışdır. Maraqlıdır ki, kreditləşdirilmənin valyuta strukturu bank sisteminin dedollarlaşdırıldığını göstərir. Belə ki hesabat ili ərzində manatla borcların payı 51%-dən 58%-ə qədər artmışdır. Uzunmüddətli kreditləşdirilmənin xüsusi çəkisi isə ilk dəfə 72% təşkil etmişdir.

Azərbaycanın bank sistemi 2009-cu hesabat ilini 252,98 mln. AZN-ə bərabər yekun gəliri ilə başa çatdırmışdır. Özü də ölkədə fəaliyyət göstərən 46 bankdan 39-u 269,57 mln. AZN həcmində gəlir haqqında hesabat vermişdir ki, bu da orta hesabla, onlardan hər biri üçün 2008-ci ilin yekunlarına görə əldə edilmiş 5,055 mln. AZN-ə qarşı 6,912 mln. AZN təşkil edir. Ümumilikdə, gəlir 77,49 mln. AZN və ya 40,34%-dən çox artmışdır.

Likvidliyin azalması təhlükəsinə baxmayaraq, bankların fəaliyyətində gəlirlilik məqbul səviyyədə qalmaqdadır. Bank sahəsində gəlirliliyin məqbul səviyyəsi onu göstərir ki, AMB-nin fəal dəstəyi və nəzarəti ilə ölkənin bankları bütövlükdə qlobal iqtisadi-maliyyə böhranının nəticələrini müvəffəqiyyətlə dəf etmişlər. Hər bir bank qrupu üzrə aparıcı göstəricilərin trendləri də bunu göstərir.

Yuxarıda verilmiş göstəricilərə əsasən, aktivlərinin həcminə görə ilk 15 bank sırasına daxil olan bankları bank artımının hərəkətverici qüvvəsi adlandırmaq olar. Onlar daha çox diversifikasiya edilmiş və uzunmüddətli fondlaşdırılma bazasına malikdirlər. Təsadüfi deyildir ki, TOP-15-də yer tutan banklar sahənin aktivlərinin 83%-nə malikdirlər. Onların likvidliklə bağlı riskləri artıq bir o qədər də aktual deyildir. AMB və ölkənin özəl banklarının əksəriyyəti sübut etdilər ki, onlar pul bazarlarında təkliflərin azalmasının və istər fiziki şəxslərin, istərsə də hüquqi şəxslərin depozitlərinin axınının uzun sürən dövrünün öhdəsindən gələ bilirlər.

**2009-cu ilin iyul-dekabr aylarında özəl əmanətlərin artımı, mln. AZN ilə**




**2009-cu ilin iyul-dekabr aylarında hüquqi şəxslərin depozitlərinin artımı, mln. AZN ilə**








# Coşqu ilə oyna

Oyunun səndə yaratdığı həyəcan və duyğuları gizlətmə. Qoy emosiyaların ağlının atdığı hər addımı dəstəkləsin. Sənin emosional təsir gücün qələbə qazanmağa kömək edə bilər.

# SƏHMDARLAR VƏ KAPİTAL

2009-ci ildə «Unibank» Kommersiya Bankının səhmdarları 2 manat nominalda 7,5 milyon sayda adi adlı sənədsiz (elektron) səhmlərin buraxılması yolu ilə nizamnamə kapitalının artırmağını qərara aldılar. Fəaliyyətinin başlanğıcından ən iri səhm emissiyasının prospekti 30 mart 2009-cu il tarixində Azərbaycan Respublikasının Qiymətli kağızlar üzrə Dövlət Komitəsində (QKDK) AZ100100202P qeydiyyat nömrəsi ilə qeydiyyata alınmışdır. İyunun 5-də isə QKDK 15 milyon manat həcmində buraxılan əlavə emissiyasının nəticələri haqqında hesabatı qeydiyyata alıb. Səhmlərin emissiyası yekunlaşdıqdan sonra Bankın ödənilmiş nizamnamə kapitalı iki dəfə artaraq 30 milyon manata bərabər olub.

Bu buraxılış nəticəsində «Unibank» ASC-nin səhmdar kapitalının strukturu əhəmiyyətli dərəcədə dəyişməyib. Çünki səhmlər Bankın, Avropa Yenidənqurma və İnkişaf Bankı və «DEG» Sərmayə qrupu da daxil olmaqla, hazırkı səhmdarları tərəfindən alınıb. Beləliklə, 2009-cu ilin sonu üçün Bankın səhmdarlarının tərkibi aşağıdakı kimi olmuşdur:

| **Bankın səhmdarları:** | | |
|---|---|---|
| Fiziki şəxslər | Eldar Qəribov | 50.8083% |
| | İqor Yakovenko | 17.5301% |
| | Emin Quliyev | 7.5168% |
| | Digər fiziki şəxslər | 0.6666% |
| Beynəlxalq maliyyə təsisatları | Avropa Yenidənqurma və İnkişaf Bankı | 15,1515% |
| | DEG Alman Sərmayə Korporasiyası | 8,3333% |

**"Unibank" ASC-nin səhm emissiyaları haqqında məlumat:**

| Emissiyaların sayı | Dövlət qeydiyyatının tarixi | Dövlət qeydiyyatı orqanı | Dövlət qeydiyyat nömrəsi | Emissiya olunan səhmələrin sayı |
|---|---|---|---|---|
| 1 | 21.07.1993 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38 | 500 |
| 2 | 28.04.1995 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38/2 | 1.500 |
| 3 | 11.05.1995 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38/3 | 18.000 |
| 4 | 20.06.1996 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38/4 | 80.000 |
| 5 | 28.12.1996 | Azərbaycan Respublikası Milli Bankı | 1050073B | 320.000 |
| 6 | 27.03.1998 | Azərbaycan Respublikası Milli Bankı | 1060073B | 180.000 |
| 7 | 29.09.1998 | Azərbaycan Respublikası Milli Bankı | 1070073B | 200.000 |
| 8 | 05.05.1999 | Azərbaycan Respublikası Milli Bankı | 1080073B | 117.500 |
| 9 | 29.06.2001 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1010202B | 200.000 |
| 10 | 10.06.2002 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1020202B | 100.000 |
| 11 | 03.10.2002 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1030202B | 767.132 |
| 12 | 13.11.2003 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1040202B | 500.000 |
| 13 | 18.05.2005 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100100202P | 800.000 |
| 14 | 17.07.2007 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100100202 | 7.500.000 |
| 15 | 05.06.2009 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100100202 | 15 000 000 |
| Cəmi Bankın nizamnamə kapitalının həcmi, AZN-lə | | | | 30 000 000 |


unibank



# Mükəmməlliyə çalış

Atdığın hər bir addımın mükəmməl, zövqverici olmasına çalış. İş bitdikdən sonra məmnunluqla xatırlamağa nəsə qalsın. Ani yerdəyişmələr, mənalı işarələr, düşünülmüş hərəkətlər və fəndlər mükəmməl oyunun tərkib hissələridir.

# MƏHSULLAR VƏ XİDMƏTLƏR

Hesabat ilində bütün istiqamətlər üzrə pərakəndə biznesin fəal inkişafı davam edirdi. Əvvəlki illərdə olduğu kimi, istehlak kreditləşdirilməsi, pul vəsaitlərinin əmanətlərə cəlb edilməsi, plastik kartlarla əməliyyatlar və pul köçürmələri kimi xidmətlərə daha çox ehtiyac var idi. Pərakəndə biznesin başlıca məqsədlərinin ümumiləşdirilmiş nailiyyəti balanslaşdırılmış göstəricilər xəritəsində əks olunmuşdur

**DEPOZIT PORTFELİ**

2009-ci ilin əvvəlində ölkənin bank sektorunda əmanətlərin səviyyəsinin enməsinə baxmayaraq, iyun ayında, faiz dərəcələrinin optimallaşdırılmasından dərhal sonra, «Unibank»-da depozit portfelinin sabit artımı başlandı. Bank tərəfindən 2009-cu ildə cəlb edilmiş depozitlərin həcmi, 2008-ci ilin analoji göstəricisi ilə müqayisədə 14,26 mln. AZN və ya 11,53% artaraq, 137,931 mln. manat təşkil etmişdir.

Ötən ilin sonu üçün əhalinin əmanətləri, müştərilərin hesablaşma hesablarındakı və cari hesablarındakı vəsaitlərinin qalıqları da daxil edilməklə, Bankın bütün fəaliyyət dövrü üçün tarixi maksimuma - 94,526 mln. manata (117,72 ABŞ dollarına) çatmışdır. Bu, ötən ildə olduğundan 13,51 mln. AZN və ya 16,68% artıqdır. Fiziki şəxslərin, cari hesablar istisna olmaqla, müddətli depozitləri, 2009-cu ilin dekabr ayının 30-u üçün 77,466 mln. manat və ya təqribən 96,5 mln. ABŞ dolları təşkil etmişdir.

| Ay | Depozit portfeli |
|---|---|
| Yanvar | 61 446 208,79 |
| Fevral | 57 615 428,87 |
| Mart | 56 049 145,27 |
| Aprel | 56 174 792,32 |
| May | 55 983 226,13 |
| İyun | 56 597 557,37 |
| İyul | 59 445 904,89 |
| Avqust | 60 964 826,04 |
| Sentyabr | 63 988 350,64 |
| Oktyabr | 66 899 259,00 |
| Noyabr | 70 434 747,30 |
| Dekabr | 77 466 443,25 |

2009-cu ildə fiziki şəxslərdən cəlb olunan vəsaitin həcminin artmasına bir sıra unikal kampaniyalar və aksiyalar səbəb olmuşlar.

**PLASTİK KARTLAR. KREDİT KARTLARI.**

2009-cu ildə plastik kartların çipli platformaya keçirilməsi tam başa çatdırılmışdır. Bütün «MasterCard» kartları üzrə çip sertifikasiyası 30.07.2009-cu il tarixində, bütün «Visa» kartları üzrə çip sertifikasiyası isə 21.08.2009-cu il tarixdə başa çatdırılmışdır.

Çipli plastik kartların ən yüksək mühafizə səviyyəsinə malik olan etibarlı ödəniş aləti olması ilə yanaşı, çip texnologiyalarının tətbiq edilməsi bundan əvvəl mümkün olmayan və ya çətinliklə həyata keçirilə bilən bir sıra imkanların həyata keçirilməsi üçün şərait yaradır. Belə ki, indi bir kartla həm debet, həm də kredit əlavəsindən, habelə loyallıq (bonusların və güzəştlərin uçotu) əlavəsindən istifadə etmək olar. Çünki maqnit zolaqlı kartlardan fərqli olaraq, çipli kartlar məlumatı emal edə və qoruyub saxlaya bilirlər. Bundan başqa, Bankın çip kartları, çipin müxtəlif mexaniki zədələnmələrə daha az məruz qalması səbəbindən, daha uzun qüvvədə olma müddətinə malikdirlər.

2009-cu ilin may ayında Bank tərəfindən plastik kartlara xidmət üzrə tariflərdə əhəmiyyətli dəyişikliklər edilmiş, nəticədə VISA Electron/Classic və MC Maestro/Standard tipli kartların pulsuz təqdim edilməsinə başlanmışdır.

12.11.2009-cu il tarixində «Unibank» MasterCard Beynəlxalq ödəniş sistemindən «E-Commerce» lisenziyasını aldı. Bundan əlavə, «Unibank» «Visa International»-dan alınmış «E-Commerce» lisenziyasına da malikdir. Dünyada ən çox tanınmış beynəlxalq ödəniş sistemlərindən alınmış «E-Commerce» lisenziyaların mövcudluğu ticarət əməliyyatları üçün klirinqi lokal İnternet-mağazalar vasitəsilə həyata keçirmək imkanı verir.

Plastik biznes sahəsində 2009-cu ilin başlanğıcında arasında Bank tərəfindən

GSM–GPRS POS-terminallarının tətbiq edilməsi layihəsini yenilik hesab etmək olar. «Unibank», bazarda ilk dəfə olaraq, «Azercell Telekom»la əməkdaşlıqda bu xidməti tətbiq etdi ki, bu da Bankın müştərilərinə transaksiyaların mobilliyini və emal edilməsi sürətini əhəmiyyətli dərəcədə artırmaq imkanı verdi. Mobil POS-terminallar mürəkkəb əlavələrlə yüksək iş sürətinə malikdirlər. Proqramlaşdırılan təhlükəsizlik modulu terminalı istənilən idarəetmə sxeminə uyğunlaşdırmaq imkanı verir. Qurğu plastik kartlara xidmət məntəqəsini, praktiki olaraq, istənilən yerdə yerləşdirmək imkanı verir. Çünki həssas xarici antenna terminala, aşağı səviyyəli GSM siqnalı şəraitində tranzaksiyaları dayanıqlı şəkildə yerinə yetirməyə yol verir.

**PUL KÖÇÜRMƏLƏRI**

2009-cu ildə «Unibank»ın fiziki şəxslərin pul köçürmələri üzrə dövriyyəsi, 2008-ci il ilə müqayisədə 27,5% artaraq, 25,5 milyon manata çatmışdır.

Hesabat ilində Bankın filialları və şöbələri vasitəsilə, hesab açılmadan, 45 603 pul köçürməsi həyata keçirilmişdir. «Unibank»da işləyən pul köçürmələri sistemləri vasitəsilə, ölkənin hüdudlarından kənara, ABŞ dolları ekvivalentində, 5,26 milyon göndərilmiş, 26,45 milyon isə qəbul edilmişdir.

Pul köçürmələri üzrə dövriyyənin artırılması üçün, 2009-cu ilin aprel ayında «Pulunuzu sərfəli köçürün və alin» aksiyası start götürmüşdür. Bu, pul köçürmələri sistemləri vasitəsilə 500 USD/EUR və 20 000 RUR-dan başlayan məbləğlərdə bütün pul vəsaiti göndərənlər və alanlar üçün nəzərdə tutulmuş bonus proqramıdır. Aksiya sayəsində «Unibank» həm pul köçürmələri üzrə dövriyyənin artmasına, həm də transaksiyaların sayının artmasına nail olmuşdur. Bundan əlavə, bonus proqramı Bankın müştərilərinin loyallığını stimullaşdırmağa imkan vermişdir. Belə ki, Bankın gün ərzində 500 USD/EUR (və ya 20 000 RUR) və daha artıq məbləğlərdə bütün pul vəsaiti göndərən və alan  müştərilərinə bonus şəklində mobil telefon üçün skretş kartlar (konturlu kartlar) verilirdi.

Oktyabr ayının 1-dən «Unibank» yeni pul köçürmələri sistemi ilə - «LİDER»lə işə başlamış, bununla da analoji pul köçürmələri sistemlərinin operatorları olan beynəlxalq şrkətlərlə əməkdaşlığı, onların sayını yeddiyə çatdırmışdır. MDB-də fiziki şəxslər üçün hesab açılmadan pul köçürmələrinin əsas sistemlərindən biri olaraq, «LİDER» dünyanın, Rusiya, bütün MDB ölkələri, ABŞ, İspaniya, Çin, İsrail, Çexiya, Yunanıstan, Böyük Britaniya, Portuqaliya, Belçika, İsveçrə, İtaliya, Türkiyə və Estoniya da daxil olmaqla, 20-dən artıq ölkəsində 7000 pul vəsaiti qəbulu və göndərilməsi məntəqəsinə malikdir. Bu pul köçürmələri sisteminin fərqli cəhəti – vəsaitlərin göndərilməsi və alınmasının təciliiliyinin və etibarlılıq zəmanətinin birləşməsidir. Bundan əlavə, «LİDER» pul köçürmələri sistemində komissiya haqqını həmişə ancaq göndərən ödəyir, halbuki alandan bu haqq tutulmur.

Bank, xidmətlərinin keyfiyyətli və rəqabət qabiliyyətli səviyyəsini təqdim edərək, «LİDER»dən savayı, daha altı beynəlxalq pul köçürmələri sistemi ilə – «Western Union» (2000-ci ildən), «Bıstraya Poçta» (2005-ci ildən), «CONTACT» (2006-cı ildən), «Faster» (2007-ci ildən), «XPmoney» (2007-ci ildən) və «Migom» (2008-ci ildən) – işləyir. Pul köçürmələri sahəsində «Unibank»ın ən mühüm üstünlüklərindən biri – 1,2%-dən başlayan tariflərdir.

**KOMMUNAL ÖDƏNİŞLƏR**

2009-cu ildə «Unibank» 18 paytaxt filialında kommunal xidmətlər üçün ödənişlərin qəbulunu həyata keçirir. Bu zaman Bank heç bir komission haqq tutmadığından, hər bir ödənişçi ancaq elektrik enerjisinin, suyun və ya qazın istifadəsi üçün qəbz üzrə məbləği ödəyir. Eyni zamanda müştərilərə, «Unibank» plastik kartlarının köməyi ilə, kommunal xidmətlərinin Kütləvi ödənişlər üzrə Mərkəzləşdirilmiş informasiya sisteminin www.apus.az İnternet saytının vasitəsilə ödənilməsi imkanı təklif olunur. Bunun üçün müştəri Banka müraciət etməlidir və onun kartı qeydiyyata alınan kimi bu cür əməliyyatların yerinə yetirilməsi üçün kod təqdim edilir.

# MƏHSULLAR VƏ XİDMƏTLƏR

## İPOTEKA KREDİTLƏRİ

2009-cu il «Unibank» üçün Azərbaycan İpoteka Fondu (AİF) ilə məhsuldar əməkdaşlıq ili oldu. Bank Mərkəzi Bankın nəzdində fəaliyyət göstərən AİF müvəkkil kredit təşkilatlarının yeni siyahısına daxil oldu.

Belə ki, iyunun 1-dən «Unibank» İpoteka Fondu tərəfindən yenidən maliyyələşdirilən yaşayış evlərinin alınması üçün kreditlərin cəlb olunması üzrə sifarişlərin qəbuluna başlayıb. Bu məqsədlə ipotekaya mənzil alınmasında maraqlı olan bütün şəxslərin rahatlığını təmin etmək üçün Bank onlar tərəfindən verilən sifarişlərin qəbul edilməsi və əməli sürətdə baxılmasını bir neçə paytaxt filialına həvalə edib. Bununla yanaşı, Bankımız üçün AİF tərəfindən ayrılan kredit limitinin həcmi bu istiqamətdə müştərilərə göstərdiyimiz kredit xidmətinin keyfiyyətli və məqsədyönlü olduğunu nəzərə alaraq artırıldı.

Xatırladaq ki, «Unibank» əvvəllər də İpoteka Fondunun müvəkkil bankları sırasında olub. Bankın AİF-in vəsaitləri ilə yenidən maliyyələşdirilən 193 ipoteka krediti üzrə məcmu portfeli 2009-cu ilin sonuna 7,680 mln. AZN təşkil edib.

## MƏMNUN MÜŞTƏRİLƏR XİDMƏTİ

Yeni pərakəndə satış strategiyasını həyata keçirərək və bank xidmətləri bazarındakı meylləri nəzərə alaraq, 2009-cu ilin iyununda Bankda xüsusi 117 Xidməti – «Məmnun müştərilərin Telefon Mərkəzi»ni açılıb.

Telefon mərkəzi, işgüzar adamlar da daxil olmaqla, öz maliyyə məsələlərinin kompleks şəkildə həll edilməsi hesabına vaxtına qənaət etməyə üstünlük verən müştərilərin bütün kateqoriyaları üçün açılmışdır. 117 xidmətinin başlıca üstünlüyü – maliyyə sahəsində yüksək ixtisaslı mütəxəssislərin vasitəsilə keyfiyyətcə yeni xidmətin göstərilməsidir. «Unibank»ın mütəxəssisləri və menecerləri indi təkcə bütün suallara cavab verməyə deyil, həm də, Bankın müştərilərinin öz iradlarını və istəklərini bildirdikləri hallar da daxil olmaqla, problemlərin kompleks şəkildə həllində yardım etməyə hazırdırlar.

Müştərilərin rəyini dəyərli tutaraq, «Unibank» onlardan hər birinə bank xidmətlərinin keyfiyyətinə müsbət təsir etmək imkanı da verir. Danışıqların tam məxfiliyinə zəmanəti də Telefon Mərkəzinin üstünlüklərindən hesab etmək olar. Bank Fərdi xidmət göstərilməsi üzrə Telefon Mərkəzinin işini, Bankın fərdi müştəri bazasının artırılmasına və işgüzar dairələrlə tərəf-müqabillik münasibətlərinin möhkəmləndirilməsinə imkan yaradan xidmətlərdən biri kimi nəzərdən keçirir. Telefon Mərkəzinin fəaliyyəti Bankın müştərilərinin, bir qayda olaraq, bir neçə növ xidmətin göstərilməsi üçün müraciət edən və menecerlər tərəfindən daha qeyri-standart yanaşma gözləyən, iqtisadi baxımdan fəal müştərilərinə yönəlmişdir. 117 Xidmətinə müraciət edərək, hər kəs mütəxəssislərin, Bankın təqdim etdiyi xidmətlər və məhsullar barədə peşəkar məsləhətinə ümid edə bilər. Belə ki, özəl müştərilər şöbələrin, filialların, bankomatların ünvanlarını və iş vaxtını, bank məhsulları və seyf xidmətləri üzrə tarifləri dəqiqləşdirə, plastik kartlar, pul köçürmələri, depozitlər haqqında, ipotekanın, avtomobillərin satın alınması və istehlak ehtiyacları üçün kreditlərin rəsmiləşdirilməsi haqqında əlavə məlumat əldə edə bilərlər.

Eyni zamanda, kiçik biznesin nümayəndələri və korporativ müştərilər üçün hesabların açılmasına, mikrokreditlərin, akkreditivlərin alınmasına, pul vəsaitlərinin yerləşdirilməsinə sifarişləri rəsmiləşdirmək daha asan olacaqdır.

117 nömrəsi ilə Telefon Mərkəzi ölkənin bütün telefon abonentləri üçün girişə malik olacaqdır – mobil nömrələrdən ona zəng vurmaq üçün +994-012 kodunu əlavə etmək lazımdır. Şəhər nömrələrindən yığılma zamanı isə ancaq şəhərlərarası rabitənin kodu nəzərə alınır (Bakıdan olan abonentlər üçün bu tələb olunmur).

### SMS-MƏLUMATLANDIRILMA

2009-cu ilin may ayından «Unibank» «8558» sms xidmətini işə salmışdır. Açar sözlərin köməyilə, bütün «Azercell Telekom» mobil rabitə operatoru nömrələrinin sahibləri, hesablarda vəsaitlərin qalıqları və hərəkəti, kreditlər üzrə ödəniş tarixlərinin yetişməsi, plastik kartların qüvvədə olma dövrü, Azərbaycan Mərkəzi Bankının xarici valyuta məzənnələri haqqında və digər zəruri məlumatı real vaxt rejimində əldə edə bilərlər.

### XİDMƏT ŞƏBƏKƏSİ

Xidmət şəbəkəsinin inkişafı «Unibank» ASC-ni, istər Bakıda və Sumqayıtda, istərsə də aparıcı regional mərkəzlərdə özünü təsdiq etmiş, ölkə miqyaslı maliyyə strukturu kimi səciyyələndirir. Bank ölkənin maliyyə mərkəzində 17 paytaxt filialı ilə və Mərkəzi ofislə təmsil edilmişdir. Pərakəndə xidmətlərin inkişaf etdirilməsi strategiyasının məqsədlərindən biri kimi, son illərdə Bank regionlarda – Gəncədə, Şəkidə, Qubada və digərlərində öz fəaliyyətini fəallaşdırmışdır. Belə ki, hesabat ilində «Unibank», 2009-cu ilin yanvar ayının 15-də, Mingəçevirdə özünün ilk filialını açaraq, özünün xidmət məntəqələrinin sayını 24-ə çatdırmışdır. Yeni filialın işinin elə ilk günlərinin təhlili göstərdi ki, 100 mindən artıq insanın yaşadığı bu regionda keyfiyyətli bank xidmətlərinə olan tələbat olduqca yüksəkdir.

**Bankın filial şəbəkəsi:**




Fəaliyyət coğrafiyasının genişləndirilməsi və regionlarda mövqelərinin gücləndirilməsi hesabına, «Unibank» istər regionlarda, istərsə də ölkənin paytaxtında müştərilərə keyfiyyətli və vaxtlı-vaxtında xidmətlər göstərən universal regional bank olmağa çalışır. Təsadüfi deyildir ki, bu gün Bankın filialları və şöbələri, bir universal struktur kimi, aşağıdakılar da daxil olmaqla, bank xidmətlərinin dütün spektrini göstərir:

- Əhalidən və korporativ müştərilərdən depozitlərin qəbul edilməsi;
- İstehlak kreditləşdirilməsi;
- Mikro-maliyyələşdirilmə və biznes-kreditləşdirilmə;
- Pul köçürmələri;
- Plastik kartlar üzrə xidmətlər.

# MƏHSULLAR VƏ XİDMƏTLƏR

**YENİ KREDİT MƏHSULLARI**

2009-cu ildə «Unibank» stimullaşdırıcı kredit aksiyalarını həyata keçirdi. Belə ki, mövcud kredit məhsullarının müştərilərə təqdim edilməsi ilə yanaşı yeni kredit məhsulu da hazırlanmışdır.
Ani kreditlər adı altında bazara təqdim edilən bu məhsul qısa müddətdə regionlarda yerləşən filialların müştərilərinin tələblərinə uyğun yaradılmış unikal kredit məhsulu oldu. Ani kreditləri müştəridən əlavə sənədlər tələb edilmədən yeni, keyfiyyətli və sürətli satılan kredit aləti adlandırmaq olar. Eyni zamanda, Bankımız digər mövcud kredit məhsullarının şərtlərində dəyişiklik apararaq, onları bazarın tələblərinə, istehlakçıların arzu və istəklərinə uyğun olan bir formaya salmışdır. Nəticədə, 2009-ci ilin maliyyə böhranı ilə müşayiət olunmasına baxmayaraq, mövcud müştəriləri maliyyə vəsaitləri ilə vaxtında təmin edilməsi ilə bərabər, yeni müştərilərin cəlb olunması istiqamətində əməli və faydalı işlər aparıldı. Qeyd etmək lazımdır ki, 2009-cu ilin ikinci yarısında avtokreditləşdirmə sahəsində tərafdaş avtosalonlarla birgə müştərilərin maraqlarına tam cavab verən, misli görünməmiş kreditləşdirmə mexanizmləri işlənildi və bazara çıxarıldı. Hesabat ilində Bank kredit məhsullarının satışını aparan mütəxəssislərə treninglər keçirmiş, onlar mövcud vəziyyətdə nəzarət və təhlilin aparılması barədə metodoloji və praktiki biliklərlə yiyələnmişlər. Kredit portfelinin sağlamlaşdırılması və effektiv işin təmin edilməsi şərti ilə yeni idarəetmə standartları işlənib hazırlandı.

Bizim üçün müştəriyə yaxın olmaq, «Unibank»ı seçən hər bir kəs üçün aydın, əlverişli və rahat olmaq çox vacibdir.

**«HƏR KƏSƏ HƏDİYYƏ» AKSİYASI**

Aksiya 01.12.2008-ci ildən 15.05.2009-cu ilədək qüvvədə olmuşdur. Bu dövr ərzində Bank «Müddətli» depozit əmanətinə 22,5 mln. manatdan artıq vəsait cəlb etmişdir. Bu məbləğin 40%-ni yenidən cəlb edilmiş vəsait təşkil etmişdir.

**«MİLYONÇU OL!» AKSİYASI**

Aksiya 01.04.2009-cu ildən 31.07.2009-cu ilədək qüvvədə olub. Bu aksiya depozit portfelinin artırılmasına və diversifikasiyasına istiqamətlənmişdi. Bu müddət ərzində 210-dan artıq müqavilə bağlanmışdır, 162 müqavilə xırda əmanətlərin (5 000 AZN-ə kimi) payına düşmüşdür.

**ƏMANƏTÇİ MÜŞTƏRİLƏRİN LOYALLIĞI PROQRAMLARI**

30.03.2009-cu ildən 31.10.2009-cu ilədək Bank, ona münasibətdə loyal olan müştərilərin vəsaitlərini daha cəlbedici şərtlərlə cəlb etmiş, bununla da əmanətçilərin sabit bazasını və nüvəsini formalaşdırmışdır.

**«FAIZLƏR ƏVVƏLCƏDƏN» YENI DEPOZIT MƏHSULU**

01.06.2009-cu ildə Bankın depozit xəttinə, müştərilərə onlara əmanət üzrə çatacaq gəlirin avans olaraq alınmasına imkan verən, yeni depozit məhsulu tətbiq edilmişdir.

**«HƏR KƏSƏ HƏDIYYƏ» AKSIYASININ**

Müştərilərin müsbət rəylərini nəzərə alaraq, 01.11.09-cu ildə «Hər kəsə hədiyyə» aksiyası davam etdirilmişdir. Aksiyanın şərtləri dəyişməz qalmışdır, lakin bu zaman tərəf-müqabillərin siyahısı genişləndirilmişdir.

01.11.09-cu ildən 31.12.09-cu ilədək olan dövrdə Bank 14,5 mln. Manat cəlb etmişdir, özü də bunun 70%-dən çoxu yeni cəlb edilən vəsaitlərin payına düşür.

### «STANDART» ƏMANƏTİNİN YENİ ŞƏRTLƏRİ

«Standart» depozit əmanətinin cazibədarlığının artırılması məqsədilə, Bankın müştərilərinə vəsaitlərin 3 aylıq yerləşdirilməsi və faizlərin rübdə bir dəfə ödənilməsi imkanı yaradılmışdır.
2009-cu ilin ikinci yarımilində Bankda özəl şəxslərin əmanətlərinin həcminin sürətli dinamikası diqqəti cəlb edir. 2009-cu ilin iyul-dekabr aylarında artım tempi demək olar ki 45%-ə çatmış, depozit sövdələrinin sayı isə 25% artmışdır.
Bu zaman, «Unibank»ın altı regional filialında (Sumqayıtda, Şəkidə, Qubada, Gəncədə, Mingəçevirdə və Şəmkirdə) fiziki şəxslərin depozitlərinin artımı orta hesabla 79,5%, əmanətçi müştərilərin sayının artımı isə 43% təşkil etmişdir.



"2009-cu ildə  fiziki şəxslərin "Unibank"a yatırdıqları əmanətlərin sürətli dinamikası diqqəti cəlb edir. Nəticədə, ötən ilin sonunda əhalinin əmanətləri Bankın fəaliyyət göstərdiyi bütün dövr üçün tarixi maksimuma çatıb. Təbii ki, bu nailiyyət depozit alətlərmizin müxtəlifliyi və daha faydalı olmasından irəli gəlir".

**Faiq Zeynalov**
Reteyl xidmətləri üzrə direktor


77
adidas




# Vaxtı izlə

İşinin başlama və bitməsi arasındakı vaxtı diqqətlə izlə. İşə sərf edilən vaxtı bilmək ondan sərfəli istifadə etmək üçün vacibdir. Vaxtını dəyərləndirmək bacarığı işgüzar adamın üstünlüyüdür. Hər bir addım zamanında atılmalıdır.

# KORPORATİV BİZNESİN DƏSTƏKLƏNMƏSİ

2009-cu ildə dünyada iqtisadi və maliyyə şəraitinin dəyişməsinə, dünya maliyyə böhranının Azərbaycan iqtisadiyyatının da bir sıra sahələrinə öz təsirini göstərməsinə baxmayaraq, bazar konyunkturunun dəyişməsi Banka korporativ biznesin bütün istiqamətləri üzrə öz işini davam etdirməkdə mane olmadı.

Korporativ biznesin korporativ sektorla və kiçik bizneslə qarşılıqlı əlaqələrin inkişafı üçün cavabdeh olan biznes-xətti, ənənəvi olaraq, «Unibank»da ən güclü istiqamətlərdən biridir. Buna həm iri biznesə xidmət sahəsində təcrübə, həm də müəssisələrin praktiki olaraq bank xidmətlərinə olan istənilən tələbatının ödənilməsi iimkanları şərait yaradır. Buna biz əsasən universal məhsul sırasının və hər bir müştərini fərdi qaydada müşayiət edən mütəxəssislərin yüksək peşəkarlığının sayəsində nail oluruq.

Hesabat ilində Bankın Baş ofisinin tərkibində iri korporativ müştərilərə xidmətin göstərilməsi üçün yeni strukturun yaradılması haqqında mühüm qərar qəbul edilmişdir. Müştəri və filial şəbəkəsinin genişlənməsi, habelə iri korporativ müştərilərin kreditləşdirilməsi və onlara hesablaşma-kassa xidmətinin göstərilməsi zamanı keyfiyyətcə yeni yanaşmanın tətbiq edilməsi zərurəti bu qərarın qəbul edilməsində həlledici rol oynadı. İri korporativ müştərilərin «VİP Korporativ müştərilərə xidmət bölməsi»ndə cəmlənməsi Banka, fərdi xidmət göstərilməsi vasitəsilə, özünün iri müştərilərini, onların tələbatını daha yaxşı tanımaq və müvafiq olaraq təqdim edilən xidmətləri bu tələbatlara uyğunlaşdırmaq imkanı verəcəkdir. Bankın Baş ofisində müştərilər üçün bu cür fərdiləşdirilmiş yanaşmanın tətbiq edilməsi, optimal maliyyə qərarlarından savayi, həm də xidmətin göstərilməsində maksimum operativlik demək olacaqdır ki, bu da iş adamları üçün heç də az əhəmiyyət daşımır.

2009-cu ildə, müştərilərin loyallığı proqramlarının inkişaf etdirilməsi çərçivəsində, CRM – müştərilərlə qarşılıqlı əlaqələrin idarə edilməsi sistemi işlənib hazırlanmış və sınaqdan keçirilmişdir. Geniş mənada, CRM – nüvəsini müştəri yönümlü yanaşma təşkil edən, dayanıqlı biznesin yaradılmasına istiqamətlənmiş konsepsiya və biznes-strategiyadır. Bu konsepsiyanın həyata keçirilməsi üçün isə, istər müştəri haqqında ətraflı məlumatı, istərsə də onun Bankla qarşılıqlı əlaqələrinin tarixçəsini əks etdirən müştəri verilənləri bazasının mövcudluğu vacibdir. Verilənlərin bu cür inteqrasiya olunmuş bazasının olduğu təqdirdə, təkcə əldə edilmiş verilənlərin təhlili üçün deyil, həm də bunun nəticəsi kimi müştərilərə xidmətin keyfiyyətinin yüksəldilməsi və qənaətbəxşliyi üçün çoxlu imkanlar yaranır. Bundan başqa, loyallıq proqramlarının inkişaf etdirilməsi çərçivəsində, Banka loyal olan müştərilərin ekspress-kreditləşdirilməsi barədə qərar da qəbul edilmişdi. Bankın, uzun illər ərzində onunla əməkdaşlıq edən müştəriləri, öz cari ehtiyaclarının maliyyələşdirilməsi üçün kredit vəsaitlərinə asan çıxış əldə etdilər.

Ayrıca strateji istiqamət kimi orta və kiçik biznesin maliyyələşdirilməsi üzrə proqramların inkişaf etdirilməsi fərqləndirilmişdir. 2009-cu ilin yayında Bank kiçik bizneslə məşğul olan sahibkarkar və müəssisələr üçün kredit məhsullarının yeni xəttini təklif etdi. Məhsul xəttində biz əsas diqqəti maliyyələşdirilmənin müddətlərinə və müştərilərə göstərilən xidmətin keyfiyyətinə yönəltmişik.

Kiçik biznes müəssisələri üçün kredit məhsullarının siyahısı universaldır və borcalanların tələbatların nəzərə alınmaqla ilə işlənib hazırlanmışdır. Hesablaşma-kassa xidmətlərinin göstərilməsi, zəmanətlərin və akkreditivlərin təqdim edilməsi ilə yanaşı, «Unibank» müştərilərinə dövriyyədə olan vəsaitin artırılması və əsas vəsaitlərin əldə edilməsi üçün kredit proqramı təklif etmişdir. Bütün təklif olunan məhsullar beynəlxalq maliyyə standartlarına müvafiqdir. Bunun sayəsində, bazarda kiçik biznesin kreditləşdirilməsi sahəsində yüksək rəqabət şəraitində, Bank müştəri bazasını qoruyub saxlaya bilmiş və diversifikasiya etmişdir. Mənimsənilmələr portfelinin sahələr strukturu Bankın daşınmaz əmlak sahəsində fəallığına, habelə topdan və pərakəndə satış müəssisələri ilə, nəqliyyat

sahəsi ilə sıx əməkdaşlığına şəhadət edir. Korporativ müştərilərin kreditləşdirilməsinin inkişaf etdirilməsi Müştərilərin Bankla cari əməliyyatlarının həcminin artması üçün əlavə motivasiya amilidir. Öz növbəsində, passiv əməliyyatların artımı həmçinin məhsulların və hesablaşma-kassa xidmətlərinin daha çox diversifikasiya edilməsi sayəsində mümkündür.

2009-cu ildə «Unibank»ın korporativ blokunun yerinə yetirməli olduğu vəzifələr, orta biznes müəssisələrinin maliyyələşdirilməsi proqramının Bankın bütün regional şəbəkəsinə yayılmasını nəzərdə tuturdu.

Nəticədə, Bankın artıq mövcud olan regional filiallarında korporativ biznesin fəal inkişaf etdirilməsi və artmasının nəticəsi kimi, regional müştərilərin artması meyli dəqiq müəyyən edildi. Bankın bir sıra filialları artıq etibarlı tərəf-müqabil adını təsdiq etmişdir və müəssisələrə xidmət göstərilməsi, onların maliyyələşdirilməsi sahəsində regional bazarlarda aparıcı mövqe tuturlar.

Qeyd etmək lazımdır ki, kiçik və makrobiznes seqmenti üçün kredit proqramının planlı surətdə inkişafını həyata keçirərək, qərarların qəbul edilməsi vaxtının ixtisar edilməsi məqsədilə, Bank daxili kredit proqramının optimallaşdırılmasını yerinə yetirmiş, «Mikro» seqmentinin müştəriləri üçün məhsulları təklmilləşdirmiş, yenilərini tətbiq etmiş, habelə yerləşmə məntəqələrinin sayını artırmışdır.



"Bizim hər bir mütəxəssisimizin korporativ bizneslə qarşılıqlı əlaqələrdə rəhbər tutduğu başlıca prinsip – təkcə müştəriyə bank məhsulunun satılması deyil, onunla strateji partnyorluq münasibətlərinin qurulmasıdır. Məhz bu cür münasibətlər bizim həlledici rəqabət üstünlüyümüzdür".

**Vaqif Qəribli**
Korporativ bank xidmətləri üzrə direktor

# İLİN SAZİŞİ

Maliyyə böhranının təsirinə cavab olaraq, «Unibank» 2009-cu ildə beynəlxalq maliyyə təsisatları ilə fəal əməkdaşlığı davam etdirdi və Azərbaycanda ən iri maliyyə paketi alan ilk özəl bankı oldu. İyulun 8-də imzalanan və «İlin sazişi» kimi tanınan bu sövdələşmə qlobal maliyyə böhranı şəraitində beynəlxalq sərmayəçilərin «Unibank»a göstərdiyi yüksək etimadını növbəti dəfə təsdiqlədi.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və digər nüfuzlu maliyyə qurumlarından cəlb olunan paket maliyyələşdirilməsi 83 milyon ABŞ dolları təşkil edib. Belə ki, AYİB tərəfindən ayrılan vəsait $37 milyon, «Deutsche Investitions-und Entwicklungsgesellschaft mbH» (DEG) Alman sərmayə qrupundan - $15,6 milyon, FMO Hollandiya Maliyyə Şirkətindən - $15 milyon, Avstriya İnkişaf Bankından (OeEB) isə - $10 milyona bərabər olub. «Unibank»ın yerli səhmdarlarının bu iri paket maliyyələşdirilməsindəki payı 5,4 milyon ABŞ dollarına çatıb. Maliyyə paketinə Bankın səhmdar kapitalına $7 milyon məbləğində sərmayə, $25 milyona bərabər olan konvertasiya olunan istiqrazlar və $51 milyonuq kredit daxildir.

Alınan vəsait Bankın kapital bazasının gücləndirilməsi üçün istifadə edildi və ən əsası Azərbaycan iqtisadiyyatının real sektoru üçün olduqca zəruri olan maliyyələşdirilməni davam etdirməyə geniş imkanlar yaratdı. Eyni zamanda, Bankın əsas tərəfdaşları və səhmdarları tərəfindən yaradılan bu maliyyələşmə bazası, uzunmüddətli kredit alətlərinin inkişafını təmin etdi.

2009-cu ilin yekünlarına görə «Unibank»ı həmçinin xarici borclarını vaxtında qaytarmış ilk özəl bank adlandırmaq olar. Hesabat ilinin ilk 4 ayı ərzində Bank AYİB, «Raiffeisen Zentralbank Osterreich AG», «Deutsche Bank», «Citibank», Qara Dəniz Ticarət və İnkişaf Bankı və digər beynəlxalq maliyyə təsisatları qarşısında məcmu həcmi $160 milyona çatan öhdəliklərini tam yerinə yetirmişdir.



"Bu sövdələşmə Azərbaycan özəl bank sektorunun inkişafı tarixində ən iri paket maliyyələşdirilməsidir. Bununla bərabər, "İlin sazişi" beynəlxalq investorların "Unibank"a və ölkənin bank sektoruna yüksək etimadını nümayiş etdirdi. Dünya kapital bazarlarında hökm sürən qeyri-sabitliyə baxmayaraq, bizim mühüm beynəlxalq tərəf-müqabillərimiz, bundan əvvəlki layihələri müvəffəqiyyətlə həyata keçirməyimiz, habelə öz öhdəliklərimizi vaxtında yerinə yetirməyimiz üçün, Banka iqtisadiyyatımızın qeyri-neft sektoru üçün əlavə vəsait cəlb etməyə imkan verdi. Əslində, bu sazışın imzalanması ilə biz Azərbaycanda bankların dünya bazarındakı sarsıntılara tab gətirmək üçün kifayət qədər güclü olduğunu sübut etdik."

**Eldar Qəribov**
Müşahidə Şurasının sədri

# KORPORATİV SOSİAL MƏSULİYYƏT

«Unibank» ASC korporativ sosial məsuliyyət proqramlarına xüsusi diqqət yetirir. Biz təkcə ölkənin ən iri maliyyə institutlarından biri yox, həm də Bankın korporativ məsuliyyətinin onların vətəndaş mövqeyinə əsaslandığı 500-dən yuxarı yüksək ixtisaslı mütəxəssislərdən ibarət olan komandayıq. «Unibank»ın cəmiyyət qarşısında məsuliyyəti dəyərlərin sadəcə deklarasiya olunmasında deyil, biznesin aparılmasının baza prinsiplərinə ciddi riayət olunmasındadır.

### BİZNESİN APARILMASININ ŞƏFFAFLIĞI

Tərəf-müqabillərlə, müştərilərlə, əməkdaşlarla və hökumət nümayəndələri ilə qarşılıqlı fəaliyyətdə açıqlıq və şəffaflıq – «Unibank» ASC üçün ən mühüm prioritetdir. Öz fəaliyyətimiz haqqında bizim açıqladığımız məlumatlar riskləri ədalətlə qiymətləndirməyə və uzunmüddətli əməkdaşlıq haqqında qərarlar qəbul etməyə imkan yaradır. Bank milli qanunvericiliyin tələblərinə ciddi riayət edir, vergiləri vaxtında və tam həcmdə ödəyir.

### SPONSORLUQ VƏ CƏMİYYƏTİN DAYANIQLI İNKİŞAFI ÜZRƏ LAYİHƏLƏRİN DƏSTƏKLƏNMƏSİ

Öz komandasının hər bir üzvünün vətəndaş mövqeyinə və onların cəmiyyətin dayanıqlı inkişafında iştirak etmək tələbatına əsaslanaraq, «Unibank» ictimai sahənin, konkret olaraq, Azərbaycan futbolunun dəstəklənməsi sahəsində çoxillik ənənələrə malikdir. Bankın ictimai məsuliyyətinin yeni səviyyəsi futbol üzrə milli çempionatda sponsorluq oldu. 2009-cu ildə Azərbaycan Peşəkar Futbol Liqası ilə üçillik sponsorluq sazişi bağlayaraq, Bank ölkədə klub futbolunun inkişaf etdirilməsi və populyarlaşdırılmasının qayğısına qalır. Bankın maliyyə vəsaitləri idmançıların, məşqçilərin və digər mütəxəssislərin dəstəklənməsinə, idman məktəblərinə, regional təşkilatlara yardımın göstərilməsinə, qabaqcıl mütəxəssislərin işə cəlb edilməsinə yönəlmişdir. Bizim sponsorluq dəstəyimiz qabiliyyətli oyunçulara böyük qələbələrin əldə edilməsində yardım edəcək və beynəlxalq arenada ölkənin idman nefuzunun möhkəmlənməsinə əhəmiyyətli pay verəcəkdir. «Unibank» premyer liqasının oyunçularının nümayiş etdirdikləri qələbə meyli, sürət və texniki mükəmməllik futbolu və Bankın fəlsəfəsini birləşdirən başlıca cəhətlərdir.

### MƏSULİYYƏTLİ İŞƏGÖTÜRƏN STATUSU

«Unibank» ASC özünün bütün əməkdaşları üçün məsuliyyətli işəgötürəndir, onlar üçün layiqli əmək şəraiti yaradır, onları zəruri sosial xidmətlər paketi və rəqabət qabiliyyətli mükafatlandırma ilə təmin edir. Bankda personalın təlimləndirilməsi və inkişaf etdirilməsi proqramları işlənib hazırlanıb və onlar daim təzələnir.

### ƏHALİNİN QORUNMAMIŞ TƏBƏQƏLƏRİNİN DƏSTƏKLƏNMƏSİ

Bank, bütün yaşlardan olan əlillərə, qocalara, valideyn himayəsindən məhrum olan uşaqlara, habelə ağır xəstəliklərə düçar olmuş uşaqlara yardım göstərərək, istər Bakıda, istərsə də regional səviyyədə xeyriyyə proqramlarını inkişaf etdirir. Biz, dəstək verilməsi barədə bütün xahişləri diqqətlə nəzərdən keçiririk və əməkdaşların xeyriyyə fəaliyyətinə qoşulmasına xüsusi əhəmiyyət veririk. Xeyriyyə fondları ilə və digər qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edərkən, «Unibank» onların nüfuzuna və rəsmi statusuna, bu təşkilatların maliyyə hesabatlarının olub-olmamasına, habelə onların istənilən an sərf olunan vəsaitlər üzrə ətraflı hesabat təqdim etməyə hazırlığına diqqət yetirir.

# «UNİBANK PREMYER LİQASI»

Ötən il «Unibank» Kommersiya Bankı» ASC futbol üzrə Azərbaycan çempionatının rəsmi Baş sponsoru oldu. Bu zaman Bank, Azərbaycan futbolunun və korporativ sektorun tarixində ilk dəfə olaraq, öz üzərinə təkcə Liqanın büdcəsinin maliyyələşdirilməsi üzrə yox, həm də milli futbol birinciliyinin populyarlaşdırılması sahəsində öhdəliklər götürmüşdür.

Əsasında «Unibank»ın futbol üzrə milli çempionatın rəsmi Baş sponsoru statusunu aldığı müqavilə Bankın İdarə Heyətinin sədri Faiq Hüseynovla Futbol Liqasının prezidenti Ramin Musaev arasında 2009-cu ilin sentyabr ayının 24-də, «Hyatt Regency» otelində imzalanmışdır. «Unibank»la PFL arasında sponsorluq haqqında saziş üç illik dövr üçün bağlanmışdır. «Unibank»la PFL arasında sponsorluq müqaviləsinin şərtlərinə görə, ölkənin futbol üzrə milli çempionatı yeni rəsmi ad almışdır – «Unibank Premyer Liqası». Müqavilə həm də Bankın reklam spotlarının və bannerlərinin yerləşdirilməsini, Liqanın oyunlarının işıqlandırılması zamanı sponsorun simvolikasından istifadə edilməsini, habelə futbol üzrə çempionatın keçirilməsi zamanı «Unibank»ın xüsusi reklam kampaniyalarının və sosial aksiyalarının keçirilməsi nəzərdə tutur.

«Unibank»ın Futbol liqasında sponsorluğu həm Bank, həm də Azərbaycan futbolunun PFL-də birləşmiş peşəkarları üçün sərfəlidir. Sponsorluqdan əldə olunan vəsaitin bir hissəsini PFL stadionların yenidən qurulmasına, habelə Ramana qəsəbəsində «Şuşa» stadionunun inşa edilməsinə xərcləməyi planlaşdırır. Bundan əlavə, çempionat çərçivəsində, «Liqanın ən yaxşı oyunçusu» nominasiyasında, hər ay futbolçuların çıxışlarının nəticələrinin, onların hansı kluba mənsub olmağından asılı olmayaraq, nəzərə alınması ilə təqdim olunan xüsusi mükafat təsis edilmişdir. Məsələn, oktyabr və dekabr aylarında Ağdamın «Qarabağ» klubunun forvardları Vaqif Cavadov və Əfran İsmayılov, noyabr ayının yekunlarına görə isə «Xəzər-Lənkəran»ın yarımmüdafiəçisi Mario Souza Liqanın ən yaxşı futbolçuları hesab edilmişlər. Ayın ən yaxşı futbolçusunun seçilməsi zamanı Premyer Liqada çıxış edən klubların məşqçilərinin (40%), jurnalistlərin (40%), PFL-nın (10%) və «Unibank»ın (10%) işçilərinin rəyləri nəzərə alınırdı. «Liqanın ən yaxşı oyunçusu» nominasiyasının qalibi olmuş futbolçulara PFL-in bürünc kubokları və «Unibank»ın pul mükafatları təqdim edilmişdir.

Peşəkar Futbol Liqasında (PFL) və milli çempionatda sponsorluq çərçivəsində «Unibank» kütləvi informasiya vasitələrinin nümayəndələrinin İstambulun «Fənərbaxça» və «Qalatasaray» klubları arasında derbi-matçda iştirakını təşkil etmişdir.

2009-cu ilin oktyabr ayının 25-26-da 11 nəfər idman şərhçisi və jurnalistlərdən ibarət komanda, habelə PFL-in və Bankın nümayəndələri, adlı-sanlı türk klublarının yüzillik tarixində növbəti maraqlı qarşıdurmanın şahidi olmaq üçün Türkiyədə olmuşlar. Bankın bu aksiyasının hər bir iştirakçısı, «Şükrü Saracoğlu» stadionunda iştirak edərək, bu prinsipial matçın atmosferini özünəməxsus şəkildə hiss edə, futbol oyununun həqiqi dəyərlərini qiymətləndirə və meydançada oyunun bütün kəşməkeşlərini seyr edə bilmişlər.

Korporativ sosial məsuliyyət prinsiplərinə sadiq qalaraq, «Qurban Bayramı»nın bayram edildiyi günlərdə «Unibank» Saray qəsəbəsində yerləşən 7 saylı internat-məktəbin yetişdirmələrini təbrik etmişdir. Kimsəsiz uşaqların qəlblərini şadlandıran sosial aksiyada ölkənin yığma komandasının forvardı Vaqif Cavadov, habelə Peşəkar Futbol Liqasının (PFL) və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəhbərliyinin nümayəndələri iştirak etmişlər.






# Qələbəyə inan

Başladığın işdə qələbəyə inan. Əks halda, özünü əvvəlcədən məğlubiyyətə dözməyə öyrədirsən. Qələbəyə inamın gücü məğlubiyyət ehtimalını sıfıra endirir. Çünki inamlı olan daha sərbəst hərəkət edər.

# BEYNƏLXALQ REYTİNQLƏR

2009-cu ildə «Fitch Raitings» beynəlxalq reytinq agentliyi «Unibank»ın cari reytinqlərini bir daha təsdiq etdi. Beləliklə, Bankın uzunmüddətli reytinqi «B-» («B minus») səviyyəsində, qısamüddətli «B» səviyyəsində, dəstək reytinqi isə «5» səviyyəsində təsdiq olundu. Fərdi reytinq «E» səviyyəsində müəyyən edildi. Bundan əlavə, «Fitch» agentliyi Bankın reytinq üzrə «Sabit» proqnozunu da təsdiqlədi. Öz növbəsində, digər reytinq agentliyi – «Moody's Investors Service» – «Unibank»ın xarici və milli valyutalarda uzunmüddətli depozitlərin reytinqini «mənfi» proqnozla «B2» səviyyəsində müəyyənləşdirmişdir. «Moody's» həmçinin Bankın maliyyə dayaniqliğı reytinqini (BFSR - Bank Financial Strength Rating) «sabit» proqnozla «E+» səviyyəsində müəyyən etmişdir. Hər iki nüfuzlu reytinq agentliklərinin hesabatlarına görə, yaxın gələcəkdə «Unibank»ın reytinq göstəricilərilərinin gücləndirilməsi və daha yüksək kateqoriyasına keçməyi istisna olunmur.

| Fitch Ratings **Kredit Reytinqləri** | **Sonuncu** (verilmə tarixi: 21.04.2009 il.) | **Əvvəlki** (verilmə tarixi: 17.12.2008 il.) |
|---|---|---|
| Proqnoz | Sabit | Sabit |
| Xarici valyutada uzunmüddətli defolt reytinqi | «B-» («B Minus») | «B-» («B Minus») |
| Milli valyutada uzunmüddətli defolt reytinqi | «B-» («B Minus») | «B-» («B Minus») |
| Xarici valyutada qisamüddətli reytinq | «B» | «B» |
| Fərdi reytinq | «E» | «D/E» |
| Dəstək reytinqi | 5 | 5 |

| Moodys **Kredit Reytinqləri** | **Sonuncu** (verilmə tarixi: 05.08.2009 il) | **Əvvəlki** (verilmə tarixi: 19.11.2008 г.) |
|---|---|---|
| Proqnoz | «Neqativ» | «Neqativ» |
| Xarici valyutada uzunmüddətli reytinq | «Ba2» | «Ba2» |
| Xarici valyutada qisamüddətli reytinq | «B2» | «B2» |
| Xarici valyutada uzunmüddətli reytinq | «Baa2» | «Baa2» |
| Milli valyutada qisamüddətli reytinq | «Prime-2 (P-2)». | «Prime-2 (P-2)». |
| Maliyyə dayaniqliği reytinqi (BFSR) | «E+» | «E+» |

# «BAHOOO» KOMMUNİKASİYA KONSEPTİ

2009-cu ilin yayında «Unibank» ASC, müasir reklam alətləri üzərində qurulmuş və bank reklamı haqqında onun «cansıxıcı» və dar auditoriyaya yönəlmiş reklam olmasını iddia edən əfsanəni puç edən, yeni «Bahooo» kommunikasiya konseptini həyata keçirdi.

Konseptin həyata keçirilməsi zamanı istifadə edilən ifadə, bir qayda olaraq, hansısa bir gözlənilməz hadisə, yeni xəbər və ya xidmətlə tanışlıq zamanı təəccüb və heyrət hissinin ifadə olunması üçün istifadə edilir. Bankın reklamında haylanmaqla səsləndirilən məşhur «Bahooo» nidasının vasitəsilə müştərilərdə, onlara təklif edilən xidmətlərin informasion və vizual baxımından yeniliyi və innovasionluğu hissi formalaşır. Bank xidmətləri bazarında yenilikçi olaraq, biz öz kommunikasiyalarımızda həm maliyyə müəssisəsinin öz müştərilərinə hörmətini, həm də özünün bütün əhatəsinə müsbət münasibətini translyasiya edirdik.

Bu cür yanaşma özünü, müştərilər tərəfindən Bankın yeni xidmətləri, tarifləri və layihələri ilə tanışlıq üçün sərf etdikləri vaxtın məhsuldarlığı və optimallaşdırılması nöqteyi-nəzərindən ən səmərəli yanaşma kimi təsdiq etdi. Yenilik effektinin sayəsində, «Bahooo» konsepti potensial müştərilərilərə də yaxın olmaq imkanı verdi və bununla da reklam kampaniyasının gedişində maksimal sinerji effekt əldə edildi. Konseptin həyata keçirilməsinin elə ilk günlərindən bir neçə min istehlakçının Bankın reklam aksiyalarında interaktiv qaydada iştirak etməsi buna sübut oldu.

«Bahooo» konsepsiyasının üslubiyyətində ilk dəfə olaraq xarici reklam üçün tizer-bannerlərin dizaynı yerinə yetirilmiş, analoji flaş-bannerlərin yerləşdirilməsi həyata keçirilmişdir. Nisbətən bahalı olmayan reklam daşıyıcılarından istifadə edilməsi fonunda, məhz reklam xəbərlərinin keyfiyyətinə xüsusi diqqət yetirilmişdir. Belə ki, ilkin mərhələdə Bankın reklam xəbərlərində nə məhsulun özünün, nə də təchizatçının adı çəkilmirdi. İstehlakçıların diqqətinə www.bahooo.com saytı təklif edilirdi, burada hər bir kəs, reklam xəbərinin müəllifi olan şirkətin düzgün variantını şərh edərək, mükafat ala bilərdi. Bankın bir neçə yüz hədiyyəsi arasında ən əsası – sahibi on-layn rejimində keçirilən vebkast vasitəsilə müəyyən edilən, Türkiyəyə səfərdir.





## Əvəzedilməzliyini başa düş

Qatıldığın komandanın vacib hissəsi olduğunu, əvəzedilməzliyini dərk et. Sən mürəkkəb sxemdə hiss edilməyən adi bir cizgi deyil, çalışan bir cihazın işlək mexanizmisən. İşini qiymətləndirmək və sevmək üçün bunu bilmən əsasdır. Sənə arxayın olanların inamını doğrultmaq, sənə ötürülən enerjinin görünən işə çevrilməsini təmin etmək borcundur.

# RİSK-MENECMENT

Risklərin keyfiyyətli idarə olunması «Unibank»ın təkcə etibarlılığının və dayanıqlılığının mütləq şərtlərindən biri deyil, həm də onun səmərəli işinin zəruri şərtidir. Bank risklərinin idarə olunması metodlarının təkmilləşdirilməsi Bank tərəfindən onun fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi nəzərdən keçirilir.

Ölkənin ən etibarlı banklarından biri nüfuzuna malik olaraq, risklərin idarə olunması sahəsində «Unibank» qarşısına təkcə bu sahədə Azərbaycan Mərkəzi Bankının normativlərinin və Bazel Komitəsinin tövsiyələrinin sözsüz yerinə yetirilməsi vəzifəsini deyil, həm də istənilən mümkün olan iqtisadi vəziyyətdə müştərilər tərəfindən öz öhdəliklərinin yerinə yetirilməsinin maksimal dərəcədə təmin edilməsi məqsədini qoyur. Məhz buna görə, öz fəaliyyətimizdə biz maksimal gəlirin əldə edilməsi məqsədini nəzarət olunan məcmu risklə dayanıqlı inkişaf məqsədinə tabe edirik. Eyni zamanda, «Unibank», bank etikasının əsas prinsiplərindən biri olan və Bank qazancının onun müştərilərinin gəlirindən yuxarı ola bilməyəcəyini nəzərdə tutan prinsipini rəhbər tuturuq.

Öz işində Bank qiymətləndirilmənin ən müasir yanaşmalarından istifadə etməyə çalışır ki, bunların da arasında Bazel Komitəsinin normativ sənədləri ilə tövsiyə olunan risk altında olan kapitalın özünün dəyərinin qiymətləndirilməsi metodunu xüsusi fərqləndirmək lazımdır. Bu zaman hər bir subportfelin məcmu maliyyə riskinə verdiyi payın, habelə risklərin ayrı-ayrı növləri üzrə Bankın kapitalının hesablanması yerinə yetirilir.

Bankda, öz üzərinə götürülən risklərin, onların optimal qaydada məhdudlaşdırılması məqsədilə, aşkar edilməsini, ölçülməsini, onlara nəzarəti və onların tənzimlənməsini təmin edən, risklərin idarə olunmasının kompleks sistemi yaradılmışdır və fəaliyyət göstərir. Risklərin idarə olunması sisteminin təşkilati əsası qismində isə artıq neçə ildir ki, müstəqil struktur bölməsi – Risklərin idarə edilməsi departamenti fəaliyyət göstərir. Onu da qeyd etmək lazımdır ki, «Unibank» ASC-nin risklərin idarə olunması sistemi 2007-ci ildə Bankın əmanətlərin sığortalanması fonduna daxil olması prosedurunun gedişində sınaqdan keçmişdir.

## KREDİT RİSKLƏRİNİN İDARƏ OLUNMASI

Kreditləşdirilmə – Bank tərəfindən həyata keçirilən aktiv əməliyyatların başlıca növüdür, buna görə də kredit riskinin eyniləşdirilməsi, qiymətləndirilməsi və idarə olunması prosedurlarına yüksək səviyyədə diqqət yetirilir. Buna görə də, kredit siyasətinin məqsədləri arasında kredit portfelinin keyfiyyətinin (riskin) məqbul səviyyədə saxlanması və Bankın etibarlı və maliyyə baxımından dayanıqlı müştərilərinin dairəsinin genişləndirilməsi xüsusi vurğulanır. Kredit riskinin səviyyəsinin məhdudlaşdırılması üzrə tədbirlərdən biri kimi, Bank tərəfindən, satışın mütləq şərtlərinə daxil olan bir sıra minimallaşdırıcı məhdudiyyətlər daxil olan, standart kredit məhsulları işlənib hazırlanmışdır. Bu məhsullara aşağıdakılar aiddir: korporativ müştərilərə overdraftlar, banklararası kreditlər, fiziki şəxslərə plastik kartlar üzrə overdraft şəklində kreditlər, avtonəqliyyat vasitəsinin satın alınması üçün kreditlər, məqsədsiz istehlak kreditləri, kiçik və orta biznesə kreditlər. Standart kredit məhsullarının hər biri üzrə, onun təqdim edilməsi və riskin səviyyəsinin məhdudlaşdırılması prosedurunu tənzimləyən normativ sənəd işlənib hazırlanmışdır ki, ona da riayət edilməsinə ciddi şəkildə nəzarət olunur.

Bankda, kreditin təqdim edilməsi, kredit layihəsinin texniki-iqtisadi əsaslandırılmasının qiymətləndirilməsi zamanı müştərilərdən tələb olunan sənədlərin unifikasiya olunmuş siyahısı təsdiq edilmişdir ki, bu da planlaşdırılan əməliyyatın risk səviyyəsi haqqında kompleks məlumat toplamağa imkan verir. Bu zaman Bank, əsaslandırılmamış yüksək kredit riskinə malik

kredit sifarişlərini artıq ilkin mərhələlərdə, vahid mövqedən, çıxdaş etməyə imkan verən tələb və məhdudiyyətlərin (stop-parametrlərin) müəyyən toplusunu müəyyən edir.

Riskin səviyyəsinin qiymətləndirilməsinin əlavə tədbiri kimi, müxtəlif müştərilərə - korporativ müştərilərə, fiziki şəxslərə, banklara – təqdim edilən kredit məhsulları üzrə risklərin qiymətləndirilməsi metodikaları işlənib hazırlanıb və istifadə edilir. Metodikalardan hər bir kredit sifarişinin nəzərdən keçirilməsi zamanı istifadə edilir. Onlarda borcalanın kredit qabiliyyətinin təhlilinə kompleks yanaşma istifadə edilir. Kredit üzrə təminat üçün təqdim olunan əmlakın və əmlak hüquqlarının girov dəyəri mütləq qaydada kreditin, faizlərin və Bankın girov predmetinə tutulmanın yönəlməsi üzrə xərclərinin məbləğini örtməlidir. İstənilən halda, təminat aşağıdakı meyarlara cavab verir: bazar qiymətinin nisbi sabitliyi və bazarda tez satış imkanı (yüksək likvidlik).

Kreditlərin qaytarılmasının və kredit risklərinin maksimum dərəcədə azaldılmasının təmin edilməsi məqsədilə, Bank tez-tez eyni bir kredit öhdəliyi üzrə bir neçə təminat növündən istifadə edir, bu zaman kreditin qaytarılmasına daha çox zəmanət verənlərə üstünlük verilir.

Banklararası kreditləşdirilmə «Unibank» tərəfindən limitlər çərçivəsində həyata keçirilir, bu zaman limitin təqdim olunmasının mümkünlüyü haqqında rəy bankların bir sıra parametrlər üzrə ilkin seçilməsindən sonra, kontragentin, sonradan onun dayanıqlılığının və ödəniş qabiliyyətinin hərtərəfli təhlilinin aparılması ilə tərtib olunur.

Risklərin idarə edilməsi departamenti biznes bölmələri tərəfindən kredit texnologiyalarına riayət edilməsinə müntəzəm, məsafədən nəzarəti həyata keçirir. Qüvvədə olan normativ sənədlərə müvafiq olaraq bank, Bankın xərclərinə aid edilən çıxılmaların hesabına, ssudalar və onlara bərabər tutulan borclar üzrə mümkün olan itkilər üçün ehtiyat formalaşdırır.

Bundan əlavə, Kredit riskləri şöbəsinin mütəxəssisləri tərəfindən kredit sifarişlərinin emal edilməsinin sürətləndirilməsi və borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsi alqoritmində daha mürəkkəb hesablamaların nəzərə alınması üçün, «Unibank»da «UCAS» Kredit risklərinin təhlili sistemi işlənib hazırlanmış və işə salınmışdır. Borcalanın reytinqinin qiymətləndirilməsi və bu kredit üzrə risklərin göstəricilərinin çıxarılması üçün zəruri olan bütün zəruri məlumatı (maliyyə göstəricilərini, kredit tarixçəsini, kreditin alınması üçün sifarişi) sistem avtomatik olaraq kredit müfəttişi tərəfindən daxil edilmiş elektron memorandumdan götürür. Bu layihə Bankın memorandumların elektron üsulu ilə sənəd dövriyyəsi praktikasına keçidinin həyata keçirilməsi və kredit müqavilələrinin vahid elektron sənəd dövriyyəsi praktikasına keçməsinin həyata keçirilməsi üçün yerinə yetirilmişdir. Modul kreditin təqdim olunması üçün sifarişlərin emalı ilə bağlı olan sənəd dövriyyəsini təşkil edir, kreditdən əvvəlki emal və qərarların qəbul edilməsi proseslərinin inteqrasiyasını təmin edir. Sənəd dövriyyəsi qərarın qəbul edilməsi prosesində iştirak edən bank əməkdaşları arasında həyata keçirilir.

**Nəticədə Bank eyni zamanda bir neçə məsələni həll edir, konkret olaraq:**

- bütün əməliyyatların mərkəzləşdirilməsi (sifarişlərin uçotu və baxılması);
- vahid mərkəzlə çoxprofilli rejimdə işin dəstəklənməsi;
- istifadəçilərin hüquqlarına hüdudların qoyulması;
- istifadəçi tətəfindən aparılan əməliyyatların protokollaşdırılması;
- biznes-prosesdə memorandumların və sənəd dövriyyəsinin təkmilləşdirilməsi;
- cari sifarişlər üzrə bütün qərarların, təkliflərin və yazışmanın protokollaşdırılması.

# RİSK-MENECMENT

## BAZAR RİSKLƏRİNİN İDARƏ OLUNMASI

Bazar riski – ticarət portfelinin maliyyə alətlərinin və törəmə maliyyə alətlərinin, habelə xarici valyuta məzənnələrinin və ya qiymətli metalların bazar qiymətlərinin arzuolunmaz istiqamətdə dəyişməsi nəticəsində itkilərin yaranması riskidir. Bazar riski anlayışına fond bazarındakı qiymət dəyişməsi, eləcə də məzənnə və faiz riskləri daxildilər. 2009-cu ildə Bank üçün əhəmiyyətli bazar riskləri məhz faiz və məzənnə riskləri olmuşlar. Fond riskləri, səhmlərlə spekulyativ əməliyyatlar keçirilmədiyindən, praktiki olaraq, olmamışdır. Faiz riski, Bank tərəfindən müştərilərin və digər bankların təsbit olunmuş faiz dərəcəsilə, Bankın müddətli depozitlərinin və təsbit olunmuş faiz dərəcəsinə malik olan digər borc vəsaitlərinin məbləğlərindən və müddətlərindən fərqlənən müddətlərə və məbləğlərə kreditləşdirilməsi nəticəsində Bankın məruz qaldığı risk kimi nəzərdən keçirilir. Faiz riskinin idarə olunması üçün, yerinə yetirilən maliyyə-dəyər təhlilinin əsasında faiz marjasına nəzarət olunması metodundan istifadə edilir. Aktivlərin və passivlərin müqavilələrlə müəyyən edilmiş faiz dərəcələrinə, onların bazar şərtlərinə uyğunlaşdırılması üçün, yenidən baxıla bilər. Faiz risklərinin məhdudlaşdırılması, bazar konyunkturasının dəyişməsi ilə əlaqədar faiz ödənişlərinə yenidən baxılması şərtlərinin kredit müqavilələrinə daxil edilməsi yolu ilə həyata keçirilir. Faiz riskinin qiymətləndirilməsi üçün, Bankın balansının faiz riskinə məruz qalma imkanlarının, faiz dərəcəsinin standartlaşdırılmış parallel zərbəsinin modelləşdirilməsi yolu ilə, qiymətləndirilməsi yerinə yetirilir.
Valyuta riski, xarici valyutada olan faktiki və ya proqnozlaşdırılan aktivlərin həmin valyutada olan öhdəliklərdən çox və ya az olduğu vəziyyətin meydana gəlməsi riski kimi nəzərdən keçirilir. Bank bir neçə xarici valyutada nominasiya olunmuş aktivlərə və öhdəliklərə malik olduğundan və xarici valyuta məzənnələrinin AZN-ə münasibətdə dəyişməsi törəmə itkilərə səbəb ola biləcəyindən, Bank açıq valyuta mövqelərinin limitlərini müəyyən edir və onların daimi monitorinqini həyata keçirir. Açıq mövqelərin (valyutanın, maliyyə alətlərinin) limitləri qüvvədə olan normativlər hüdudunda müəyyən edilir və onlara daim nəzarət edilir.

## LİKVİDLİK RİSKİNİN İDARƏ OLUNMASI

Likvidlik riski Bankın fəaliyyətinin ümumi maliyyələşdirilməsi və mövqelərin idarə olunması zamanı nəzərdən keçirilir. O özünə, aktivlərin lazım olan müddətlərdə və lazım olan dərəcələrlə maliyyələşdirilməsinin qeyri-mümkünlüyü riskini, eləcə də aktivin məqbul qiymətə və müvafiq müddətlərdə likvidləşdirilməsinin qeyri-mümkünlüyü riskini birləşdirir. Bankın müxtəlif maliyyə mənbələrinə giriş imkanı vardır. Vəsaitin cəlb edilməsi müxtəlif maliyyə alətlərindən istifadə olunması yolu ilə həyata keçirilir. Bunun sayəsində bazis riskləri diversifikasiya olunur, hansısa bir maliyyələşdirilmə mənbəyindən asılılığı zəifləyir və bir qayda olaraq vəsaitlərin dəyəri azalır. Bank, müxtəlif ödəniş dövrlərinə malik olan öhdəliklərindən istifadə edərək, maliyyələşdirilmənin balansını dəstəkləyir. «Unibank» daim likvidlik riskinin, biznesin məqsədlərinə nail olmaq üçün maliyyələşdirilmədə dəyişikliklərin aşkar edilməsi və monitorinqi yolu ilə, qiymətləndirilməsini həyata keçirir. Bank tərəfindən likvidliyin çatışmamasının kənar qiymətləri təsdiq edilir və onlara ciddi riayət olunur. Likvidliyin qısamüddətli proqnozunun tərtib edilməsi qaydası müəyyən edilmişdir və bu proqnoz müntəzəm olaraq tərtib edilir. Bütövlükdə Bank üzrə müvəqqəti və kumulyativ GAP-ın hesablanması yerinə yetirilir.

## DİGƏR RİSKLƏRİN İDARƏ OLUNMASI

«Unibank» tərəfindən. əməliyyat və hüquq riskləri də daxil olmaqla, digər risklərin də idarə olunmasına müəyyən yanaşmalar müəyyən edilmişdir. Konkret olaraq, idarə olunma prosesində, onun Bankın səmərəliliyi üçün işləməsinin iqtisadi və

normativ-hüquqi şərtlərin mümkün olan dəyişmələrinin təsiri nəzərə alınır. Bunun əsasında Bankın funksional bölmələrinin vəziyyətin perspektiv qiymətləndirməsini və proqnozlaşdırılmasını həyata keçirdiyi ilkin verilənlər bazasının tamlığına, tərkibinə və müasirliyinə nəzarət edilir. Bankın rəhbərliyinin, analitik xidmətlərin və struktur bölmələrinin gəldiyi nəticələr və irəli sürdüyü təkliflər barədə, bazarın müvafiq seqmentində, bütövlükdə iqtisadiyyatda, bank fəaliyyətinin normativ-hüquqi sahəsində vəziyyətin inkişafı proqnozları haqqında, operativ və sistematik məlumatlandırılması həyata keçirilir. Bank tərəfindən təklif olunan məhsulların bazarda rəqabət qabiliyyətinə, keyfiyyətinə və dəyərinə nəzarət, onların digər kredit təşkilatlarının analoji xidmətləri ilə müqayisəsi yerinə yetirilir.

**Bankda aşağıdakı funksiyaları həyata keçirən proseduralar və mexanizmlər mövcuddur:**

- Bank sövdələrinin və digər sövdələrin yerinə yetirilməsinin müəyyən edilmiş qaydalarının əməkdaşlara vaxtında çatdırılmasının təmin edilməsini;
- Əməkdaşın, əməliyyatların onun üçün müəyyən edilmiş həcmi və tərkibi hüdudlarından çıxmasının qarşısının alınmasını;
- İşçi tərəfindən həyata keçirilən əməliyyatların şərtlərinin Bankın ümumi resursların cəlb edilməsi və yerləşdirilməsi siyasətinə müvafiqliyinin təmin edilməsini;
- Bankın müştərilərinin iddia və şikayətlərinin operativ qaydada nəzərdən keçirilməsinin təmin edilməsini.

Əməliyyat riski, Bankın daxili proseslərinin həyata keçirilməsi zamanı əməkdaşlar tərəfindən yol verilən, informasiya sistemləri və texnologiyalarının fəaliyyətinin, habelə xarici hadisələrin təsirinin nəticəsi kimi meydana çıxan çatışmazlıqların və səhvlərin nəticəsində Bankın itkilərinin meydana gəlməsi riski kimi nəzərdən keçirilir. Düzgün olmayan qərarların qəbul edilməsi riski, əməliyyatların əksəriyyətinin qərarların qəbul edilməsinin kollegial sistemindən keçməsi hesabına, minimuma endirilir. Sənədlərin qeyri-düzgün rəsmiləşdirilməsi riski tipik unifikasiya olunmuş müqavilə və sənəd formalarının işlənib hazırlanması və qəbul edilməsi, onların daim təzələnməsi və Bankın rəhbərliyi tərəfindən imzalanmağa hazır olan sənədlərin çoxsəviyyəli razılaşdırılmasının və onlara dərkənar qoyulmasının hesabına minimuma endirilir. İnformasiya texnologiyaları riski, informasiyanın mühafizə olunması və təkrarlanması sisteminin işə salınması, ixtisaslaşdırılmış müəssisələrdən – informasiya texnologiyaları bazarının liderlərindən alınmış və onların müşayiət etdiyi proqram-texniki komplekslərin istifadə edilməsi hesabına, azaldılır.

Bankın hüquq departamenti istər təsdiq edilmiş, istərsə də planlaşdırılan qanunvericilik dəyişikliklərinin müntəzəm monitorinqini yerinə yetirir ki, bu da inkişaf strategiyasını, bank məhsullarını, Bankın əməliyyat fəaliyyətini və proqram təminatını vaxtında qanunvericiliklə tam müvafiqliyə gətirməyə imkan veriri.

Qeyd etmək lazımdır ki, Daxili audit xidməti tərəfindən keçirilən audit risklərin çoxsəviyyəli idarə olunmasının keyfiyyətinə daxili nəzarətin mühüm alətidir.


UNIBANK
WXZ BANK
14
unibank



# Hazır ol

Hər an böyük bir işə başlaya biləcək qədər hazır ol. İş ustasından qorxduğu kimi, biznes də peşəkar "oyunçu"dan çəkinər. Formada olmaq forma geyinməyə və meydanda dayanmağa hazır olmaqdır. Formada olmaq fiziki və zahiri görüntüdən daha çox, əqli və mənəvi göstəricidir.

# HR-MENECMENT

«Unibank»ın kadr siyasəti bu prinsip üzərində qurulub və əməkdaşların mükəmməl sürətdə seçilməsi və öyrədilməsinə yönəldilib.

2009-cu ildə HR Bölməsinin əsas vəzifəsi Bank əməkdaşlarının peşəkar səviyyəsinin qaldırılması, heyətin komanda ruhunun yüksəldilməsi, personal arasında korporativ mədəniyyətin təbliğatı idi.

Bundan başqa HR-menecment tərəfindən ötən ildə bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, ilin əvvəlində açılmış Mingəçevir filialının işçi heyəti bankın daxili qaydalarına uyğun olaraq tam hazırlanmışdır. İlin sonunda Gəncə şəhərində açılması planlaşdırılan əlavə şöbənin işçi heyətinin komplektləşdirilməsi məqsədi ilə seçim müsabiqələri keçirilmiş və seçilmiş stajçılar nəzəri və praktiki cəhətdən işə tam hazırlanmışlar.

İRB-nin əməkdaşları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Baş Məşğulluq İdarəsi tərəfindən təşkil edilən əmək yarmarkalarında da yaxından iştirak etmişlər. 2009 cu il ərzində Unibank Azərbaycan Dövlət İqtisad Universiteti ilə sıx əməkdaşlıq etmişdir. Universitetin nəzdində yaranan Karyera planlaması mərkəzi ilə birlikdə yüksək balla Universitetə qəbul olunmuş və Maliyyə, Mühasibatlıq,

Kredit, BİM fakultələrində əla qiymətlərlə oxuyan 4 cü kurs tələbələri arasında müsabiqə keçirmiş və müsbət nəticələr əldə edən tələbələr Unibankda müxtəlif istiqamətlər üzrə iş təcrübəsi keçdikdən sonra işlə təmin edilmişlər. Hər il olduğu kimi bu il də Unibank «MƏZUN - 2009» yarmarkasında iştirak etmişdir.

Banka potensiallı, intellektual səviyyəli kadrları cəlb etmək məqsədilə işə qəbul prosesi üçün namizədlərin intellektual səviyyələrini müəyyən edən yeni testlər hazırlanmış və bu testlərdən 2009-cu ildə işə qəbul zamanı istifadə edilmişdir.

Mövcud işçi heyəti arasında komanda ruhunun yüksəldilməsi məqsədilə il ərzində bir neçə korporativ tədbirlər və «Teambuilding»lər təşkil edilmişdir. 2010-cu ildə açılacaq yeni filiallar üçün kadrlar seçilmiş və onların bankın mövcud filiallarında təcrübə keçməsinə şərait yaradılmışdır.

## UNİTRAİNİNG

«Unibank» öz müştərilərinə hörmətlə yanaşır və onları qiymələndirir, buna görə də xidmətlərin keyfiyyətinin və hər bir əməkdaşın peşəkar səviyyəsinin yüksəldilməsi üçün bütün imkanlardan istifadə edir. Komandamızın hər bir üzvü Bankın siması olduğundan, biz bütün xidmət şəbəkəsinin, 2009-cu ilin sonu üçün 550 nəfərdən artıq olan personalının təlimləndirilməsinə və inkişafına xüsusi diqqət veririk.

2009-cu ildə «Unibank»-ın Korporativ təlim mərkəzi – «Unitraining» 100-dən artıq müxtəlif treninq və seminarlar keçirmişdir. Personalın təlimləndirilməsinin illik planı çərçivəsində əməkdaşların bu və ya digər qrupu üçün mütləq qaydada keçirilən hər bir treninq, dəqiq məqsədli auditoriyanın təlimlənməsinə yönəlmişdir. İxtisaslaşmış təlim bank işinin, menecmentin səciyyəsini əhatə edir, əməkdaşların praktiki vərdişlərinin inkişaf etdirilməsini nəzərdə tutur. «Unitraining»-də həm də personalın adaptasiya proqramı adlandırılan proqram həyata keçirilmişdir. Adaptiv təlim proqramı əməkdaşlarda «Unibank»ın strukturu,

norma və dəyərlər sistemi, texnoloji və korporativ xüsusiyyətləri haqqında biliklərin formalaşdırılmasına yönəlmişdir.

Təlim prosesindən əlavə, 2009-cu ildə «Unitraining» həm də personalın qiymətləndirilməsi prosesini müvəffəqiyyətlə həyata keçirmişdir. Bundan əvvəl Frankfurt Biznes məktəbinin mütəxəssislərinin iştirakı ilə həyata keçirilən «Assessment center» layihəsi çərçivəsində işçilərin təlimləndirilməsinə olan tələbatın aşkar edilməsi yerinə yetirilmişdir. Bunun sayəsində 2010-cu ildə «Unitraining» treninqlərin daha çox tələb olunan və aktual kontentini tətbiq edəcək, habelə personalın məsafədən təlimləndirilməsinin tətbiqinə başlayacaqdır.

«Unitraining» 2008-ci ilin fevral ayında, Bankın aparıcı bölmələrinin rəhbərlərinə biznes-məqsədlərə nail olmaqda yardım edəcək əlverişli və çevik təlimlənmiş resursun yaradılması məqsədilə yaradılmışdı. Təlim mərkəzinin treynerləri tərəfindən tətbiq edilən təlim sistemləri və metodları tam mənada Bankın inkişaf strategiyasını əks etdirirl, Bu sistemlər «Unibank»ın korporativ mədəniyyətinin xüsusiyyətlərinə uyğunlaşdırılıb və birinci dərəcəli korporativ vəzifələrin həllinə istiqamətləndirilib.



"2009-cu ili mən yeni inkişaf mərhələsi kimi dəyərləndirərdim və bir bank rəhbəri kimi deyə bilərəm ki, biz məhz indi tam üstünlüyə malikik. «Unibank»ın iş təcrübəsi və etibarlı kredit ehtiyatları ilə bərabər ən əsas üstünlüklərdən biri - əsl peşəkarcasına işini yerinə yetirən fərqli mütəxəssislər komandası var".

**Faiq Hüseynov**
İdarə Heyyətinin sədri


İLLİK HES
09




# Qol

İşin sonunda başlanğıcdakı məqsədini xatırla və düşün: oyun sən istədiyin kimi keçdi?! Sən istədiyin və səndən tələb olunan kimi oynaya bildinmi? Hər kəs yerində idimi? Komandanın zəif bəndləri kim idi? Mükəmməl oyun üçün daha nə edə bilərdin? Bu suallara cavab tapdınsa, növbəti oyunun bu oyundan daha yaxşı olacaq!

# İNFORMASİYA TƏMİNATI VƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ

İİnformasiya texnologiyaları «Unibank» ASC-nin rəqabət baxımından üstünlüyünü və onun biznesinin dayanıqlı inkişafını təmin edən aparıcı ünsürlərdən biridir. 2009-cu ildə Bank informasiya sistemlərini, onların relevantlığını, habelə verilənlərin ötürülməsinin sürətini və etbarlılığını əhəmiyyətli dərəcədə artıraraq, yeniləşdirmişdir. İnformasiya texnologiyaları sahəsində layihələrin əksəriyyəti birləşmiş strukturların idarə edilməsinin təşkil olunmasına, birləşmiş inteqrasiya olunmuş İT-platformanın standartlaşdırılmasına, yeniləşdirilməsinə yönəlmişdir. Onların sırasında plastik kartlar üzrə informasiyanın emal olunması prosesini, «Bank-filiallar» kommunikasiya rinqinin yaradılması üzrə işləri, yeni məhsulların qoşulması imkanı ilə «Kredit Komitəsi», «Kreditlər» və «Depozitlər» proqram modullarının inkişaf etdirilməsi və tətbiqini qeyd etmək olar. Bu yolla Bankın İT-xidməti, hesabın açılmasından risklərin təhlilinə kimi bütün proseslərin səmərəliliyini artırmağa, pərakəndə biznesin aparılmasının müştəri yönümlü modelini dəstəkləməyə, müştərilərlə iş zamanı midl- və bek-ofislərin mütəxəssislərinin əmək sərfinin minimuma endirilməsinə nail olmuşdur. Yaxşılaşdırılmış texnologiyalardan istifadə edilməsi və prosedurların mərkəzləşdirilməsi sayəsində bütün Bank miqyasında müsbət effekt əldə edilmişdir.

Bank xidmətinin yüksək texnoloji istiqaməti kimi mobil bankinqi inkişaf etdirərək, «Unibank» 2009-cu ildə özünün SMS-məlumatlandırılma sisteminin funksionallığını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Konkret olaraq, hesabların vəziyyəti, əmanətlər, kreditlər və plastik kartların balansları haqqında real vaxt rejimində operativ məlumatın əldə edilməsi imkanı verən yeni xidmətlər işə salınmışdır. SMS-məlumatlandırılma sisteminin müştərilərə təqdim edilən əlavə funksiyaları istifadədə rahatdır və bank əməliyyatları üzərində məsafədən nəzarəti həyata keçirmək, kreditlərin ödənilməsində vaxt ötürmələrindən yaxa qurtarmaq imkanı verir, habelə pul vəsaitlərinin mühafizəsi üzrə əlavə tədbirləri təmin edir.

Biznesin sürətlə dəyişən tələblərinə müvafiq olaraq, ötən il, İnternet-bankinqin proqram təminatının işlənib hazırlanması vasitəsilə, müştərilərə məsafədən xidmət göstərilməsi sistemi təkmilləşdirilmişdir. Müştərilərə pulsuz təqdim edilən İnternet-bankinq xidmətləri onların vaxtına əhəmiyyətli dərəcədə qənaət edəcək və dünyanın istənilən nöqtəsindən istənilən vaxt bank xidmətlərindən səmərəli istifadə edilməsinə imkan yaradacaqdır.

Bundan əlavə, 2009-cu ildə «Unibank» ASC özünün bütün işçi stansiyalar və serverlər parkının proqram təminatının korporativ lisenziyalaşdırılması proqramının həyata keçirilməsinə başlamışdır. «ULTRA» şirkəti ilə bağlanmış «Microsoft Enterprise Agreement» müqaviləsi çərçivəsində 300 fərdi kompüter üçün proqram təminatlarının son variantlarının istifadə edilməsi üçün lisenziyalar əldə edilmişdir. Korporativ lisenziyalaşdırılmanın bu variantının üstünlüyü yeniləşdirilməyə abunənin sazişin dəyərinə daxil edilməsidir, bu isə məhsulların təzə variantlarının, bütün yeniləşmələrin və patçların, «Unibank»ın informasiya sisteminin təhlükəsizliyini təmin etməklə, istifadə edilməsinə və onun dünyəvi meyllərə müvafiq olaraq daim inkişafına imkan yaradır. Bank həmçinin sazişə daxil edilmiş proqram təminatlarını, onun bağlanmasından sonra əldə edilmiş kompüterlərə də yükləmək hüququ əldə etmişdir.

Zəmanət verilmiş daimi texniki dəstək, habelə «Microsoft Enterprise Agreement» proqramının digər yuxarıda göstərilən üstünlüklərini əldə edən «Unibank», «Microsoft» proqram təminatından korporativ platforma kimi istifadə edir. Bu bir daha sübut edir ki, Bankın fəaliyyəti dünya keyfiyyət standartlarına müvafiqdir və bütövlükdə ən mühüm strateji məqsədin yerinə yetirilməsinə - ən yüksək keyfiyyətli xidmətlərin göstərilməsinə yönəlmişdir.

# İŞGÜZAR NÜFUZ

«Unibank» ASC öz nüfuzunu ən dəyərli aktivlərdən biri kimi qəbul edir və öz müştərilərinin işgüzar imicinin müdafiəsi üçün bütün zəruri tədbirləri yerinə yetirir. Bankın cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasının və terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması sahəsində siyasəti – Bankın məhsullarından və xidmətlərindən, çirkli pul vəsaitinin «yuyulması», terrorizmin maliyyələşdirilməsi, möhtəkirlik və korrupsiya da daxil olmaqla, kriminal fəaliyyətin həyata keçirilməsi üçün istifadə edilməsinə yol verilməməsi məqsədini güdür.

Daxili nəzarət sisteminin əhəmiyyətli ünsürlərindən biri – cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasının (yuyulmasının) və terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması üzrə tədbirlər sistemidir. Bu sistem milli qanunvericiliyin və Azərbaycan Mərkəzi Bankının normativ aktlarının tələblərinə müvafiq olaraq işlənib hazırlanmışdır. Qanunvericiliyin tələblərinə, habelə Bankın daxili prosedurlarına müvafiq olaraq, Bankda cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasının (yuyulmasının) və terrorizmin maliyyələşdirilməsinin qarşısının alınması üzrə işdə bütün personalın iştirakı təmin edilir, Bankın filiallarında və daxili bölmələrində mənfəət əldə edənlərin aşkar edilməsi üçün nəzarət təşkil edilmişdir. Mütləq nəzarət altında olmalı olan əməliyyatların vaxtında aşkar edilməsi məqsədi ilə proqram təminatı təkmilləşdirilir.

Lazımi proseduraların həyata keçirilməsi «öz müştərini tanı» prinsipi üzrə, tənzimləyici orqanların tələblərinə, məxfiliyə riayət edilməsi üzrə milli və beynəlxalq standartlara və bank sirrinin açılmaması haqqında qaydalara ciddi surətdə riayət olunaraq, yerinə yetirilir.

**Bu zaman aşağıdakılara xüsusi diqqət yetirilir:**

- Müştərilərin elektron anketlərinin qorunub saxlanılması və emal edilməsinin kompüter metodlarının işlənib hazırlanmasına və təkmilləşdirilməsinə;
- Mütləq və əlavə nəzarət altında olmalı olan əməliyyatların avtomatlaşdırılmış qaydada aşkar edilməsinə;
- Vicdansız müştərilərin, istər özəl, istərsə də korporativ, aşkar edilməsi sisteminin təkmilləşdirilməsinə;
- Personalın savad səviyyəsinin yüksəldilməsinə. Çünki Bankın hər bir əməkdaşının səriştəliliyi göstərilən vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsində prinsipial rol oynayır.

# TÖRƏMƏ ŞİRKƏTLƏR

## UNILEASING

2009-cu ilin yekunlarına görə,  ölkənin lizinq bazarında “Unileasing”in payı təxminən 30%-ə çatmışdır. Portfelinin həcminə görə isə şirkət yerli lizinqverənlər arasında birinci yeri tutmuşdur.
2009-cu ilin dekabr ayının 31-i üçün şirkətin lizinq portfeli 31,8 mln. AZN təşkil etmişdir ki, bu da il ərzində 280-dən artıq lizinq sövdəsinin bağlanmasının nəticəsi olmuşdur. “Unileasing”, ümumi məbləği 11 mln. ABŞ dollarından artıq olan 792 lizinq obyektinin əldə edilməsini maliyyələşdirmişdir.

Bu zaman şirkətin başlıca prioritetləri lizinq portfelinin diversifikasiyası, istehlak sektorunun maliyyələşdirilməsinin fəallaşdırılması, habelə bu və ya digər səbəbdən ödənişin yerinə yetirilməsində çətinliklərin yaranması üzündən müştərilər tərəfindən qaytarılmış lizinq obyektlərinin yerləşdirilməsi və satışı üzrə işlər olmuşdur.

Aşağıda göstərilən cədvəldən göründüyü kimi, lizinq portfelinin diversifikasiyasının nəticəsi istehsal sahəsi obyektlərinin maliyyələşdirilməsinin artırılması hesabına inşaat sektorunun payının azalması oldu. İstehlak sektorunda layihələrin maliyyələşdirilməsinin fəallaşdırılması, öz növbəsində, şirkətin ümumi portfelində bu seqmentin xüsusi çəkisini ikiqat artırdı.
2009-cu ildə “Unileasing” lizinq şirkətinin avtomatlaşdırılması layihəsi start götürdü. Layihə, ixtisaslaşdırılmış lizinq həllindən – Proleasing proqramından istifadə edilməklə, şirkətin idarə edilməsinin (ilk növbədə - maliyyənin və sövdələrin idarə edilməsinin) avtomatlaşdırılmasını nəzərdə tutur. Yeniliyin tətbiq edilməsi anına qədər şirkət özünün, elektron cədvəllərin və mühasibat sisteminin bazasında yerinə yetirilmiş, bir sıra işləmələrindən istifadə edirdi. Lakin müştərilərin sayının və lizinq portfelinin həcminin artması ilə, habelə biznes-proseslərin mürəkkəbləşməsi ilə, bu alət öz aktuallığını itirmiş oldu. Şirkətin fəaliyyət səciyyəsinin nəzərə alınması ilə kompleks avtomatlaşdırılma zərurəti meydana çıxdı.

Dünya bazarında yaranmış vəziyyətə baxmayaraq, “Unileasing” şirkəti 2009-cu ildə müvəffəqiyyətli danışıqlar aparmış və

**Şirkət portfelinin iqtisadiyyatın sektorları üzrə bölünməsi:**

| İqtisadiyyat sektoru | 31.12.2009 | 31.12.2008 |
|---|---|---|
| İnşaat və inşaat materiallarının istehsalı | 23% | 27% |
| Nəqliyyat | 10% | 12% |
| Təbabət | 3% | 4% |
| Topdan ticarət | 13% | 15% |
| Istehsal | 26% | 24% |
| Istehlak sektoru | 16% | 8% |
| Digərləri | 10% | 10% |

“Landesbank” (Almaniya) ilə 5 mln. ABŞ dolları həcmində kredit xəttinin cəlb edilməsi üzrə müqavilə bağlamışdır. Bu xəttin, habelə “Eximbank USA” və “M&T Bank”ın kredit xəttinin mənimsənilməsinə 2009-cu ildə başlanmışdır. Əldə edilmiş vəsaitləri şirkət ABŞ-dan və Almaniyadan inşaat texnikasının, istehsal avadanlığının, tibbi avadanlığın, minik avtomobillərinin və digər obyektlərin əldə edilməsinin maliyyələşdirilməsinə yönəltmişdir. Kredit xətləri çərçivəsində “Unileasing” tərəfindən ABŞ-dan 2 mln. ABŞ dollarına yaxın məbləğdə onlarla avtomobilin və inşaat texnikasının, habelə Almaniyadan 3 mln. ABŞ dollarında artıq məbləğdə sənaye avadanlığının əldə edilməsi maliyyələşdirilmişdir. Lizinq xidmətlərinə ehtiyacın potensial artımını nəzərə almaqla, 2010-cu ildə şirkət kredit xətlərinin həcmlərini artırmaq, habelə layihələrin maliyyələşdirilməsi şərtlərini yaxşılaşdırmaq niyyətindədir.

Bundan əlavə, 2010-cu ildə “Unileasing” Azərbaycan kredit təşkilatları tərəfindən satışa çıxarılmış kredit/lizinq obyektləri üzrə vahid on-line məlumat bazasını yaratmağı planlaşdırır ki, bunun da əsas məqsədi - kredit/lizinq obyektlərinin satıcıları və alıcıları üçün vahid məkanın yaradılmasıdır. Bununla yanaşı, 2010-cu il ərzində ABŞ-da və ya Almaniyada istehsal olunan istənilən obyekti seçə biləcəyi və onun bu ölkələrdən lizinqə alınmasını sifariş edə biləcəyi layihənin həyata keçirilməsi planlaşdırılır. Yeniliyin tətbiq edilməsi vasitəsilə minik avtomobillərinin, yük maşınlarının, inşaat texnikasının, sənaye avadanlığının, tibbi avadanlığın və yuxarıda göstərilən ölkələrin istehsal etdiyi digər obyektlərin sifarişlə lizinqə əldə edilməsi mümkündür.

**«UNICAPITAL»**

“Unicapital” ASC Azərbaycan kapital və fond bazarlarında cavan bir şirkət olduğuna baxmıyaraq, 2009-cu ildə 2008-ci ilə nisbətən daha yüksək nailiyyətlər əldə edə bildi. Belə ki, ötən il ərzində “Unicapital”, müştəri bazasının artırılmasınıa nail olaraq, xidmət göstərdiyi hüquqi şəxslərin sayını 31%, fiziki şəxslərin sayını isə 38% artırıb. Təcrübəli və məntiqli iş əsasında müştəriyönümlü fəaliyyətin bir nəticəsi də şirkətin illik dövriyəsinin artması oldu. Dövlət qiymətli kağızları üzrə keçirilən hərraclarda il ərzində 6 dəfə ilk pilləni və 2 dəfə ikinci yeri tutan “Unicapital”, fond bazarının peşəkar iştrakçıları renkinqində birinci oldu. Xatırladaq ki, 2008-ci ildə dövlət qiymətli kağızlarının ümümi dövriyyəsinə nisbətən əməliyyatların həcminə görə “Unicapital” 2-ci yeri qazanmışdır.

“Unicapital” şirkətinin biznesinin prioritet təşkil edən istiqamətlərindən biri – müştərilərə onların öz qiymətli kağızlarının buraxılmasında yardımın göstərilməsindən ibarət olan anderrayter xidmətləridir. Onlara səhmdar müəssisələrin səhmlərinin, korporativ istiqrazların buraxılması, hüquqi və fiziki şəxslər tərəfindən veksellərin və digər qiymətli kağızların buraxılması aid ola bilər. Bir sərmayə şirkəti kimi “Unicapital”, qiymətli kağızların buraxılışlarının tam yerləşdirilməsi üçün potensial sərmayədarların tapılması üçün, bütün qüvvəsini sərf edir. Bundan əlavə, korporativ qiymətli kağızların Bakı Fond Birjasının (BFB) kotirovka vərəqinə daxil edilməsinə dəstək verir. Anderraytinqlə və broker xidmətləri ilə yanaşı, “Unicapital” qiymətli kağızların idarə edilməsi üzrə də xidmətlər göstərir. Söhbət kağız portfellərinin idarə edilməsindən və müştərilərin vəsaitlərinin Azərbaycan emitentlərinin kağızlarına peşəkar şəkildə sərmayə olunmasından gedir. Bütün müştərilərə sərmayə qoyuluşunun məqsədlərinin müəyyən edilməsində və müxtəlif bazarlarda sərmayə qoyuluşu üçün potensial imkanların təhlilində yardım göstərilir. Bu zaman, konkret müştərinin sərmayə məqsədlərinin, onun xüsusiyyətləri, istəkləri və fəaliyyətinin səciyyəsi nəzərə alınmaqla, əldə olunması üzrə iş aparılır. Həmçinin önəmlidir ki, dövlət kağızları üzrə 2009-cu ilin sonunda illik faiz dərəcələrin aşağı düşməsinə baxmayaraq, şirkət müştərilərin qiymətli kağızlar portfelinin diversifikasiya yolu ilə gəlir gazanmağına hərtərəfli şərait yarada bildi. Bunula da, “Unicapital” ASC-ti , “Unibank”ın törəmə sərmayə şirkəti olaraq, 2009-cu ilə qarşısına qoyduğu bütün məqsədlərə çata bildi və ən əsası müştərilərin gəlirlərini heç bir itki vermədən artırdı.

# AUDİT HESABATI

"PricewaterhouserCoopers Eastern Europe B.V." şirkətinin Azərbaycan filialı tərəfindən "Unibank" ASC-nin Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun hazırlanmış və tamamlanan 2009-cu maliyyə ili üzrə konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi ilə elektron formatda 61-ci səhifədə olan CD-disk vasitəsi ilə tanış ola bilərsiniz.

www.unibank.az